HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 07 (697) ■ 19 fevral 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Ölkəmizdə idman infrastrukturu dünya standartları səviyyəsində qurulur

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 17-də Bakıda Milli Gimnastika Arenasında tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

Son illərdə ölkəmizdə idman infrastrukturunun yaradılması istiqamətində mühüm tədbirlər görülür, yeni obyektlər tikilib istifadəyə verilir. Təsadüfi deyildir ki, Beynəlxalq Olimpiya Hərəkatının fəal üzvlərindən olan Azərbaycanda tikilən Olimpiya idman komplekslərinin sayı 40-ı ötür. Mövcud idman obyektlərində aparılan yenidənqurma işləri beynəlxalq yarışların keçirilməsi üçün ölkəmizin imkanlarını daha da artırır. Azərbaycan 2015-ci ildə keçiriləcək birinci Avropa Oyunlarına hazırlaşır. İdman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Milli Gimnastika Arenasında görülən işlər də xüsusi əhəmiyyətə malikdir.

Təməli 2009-cu ilin avqustunda dövlətimizin başçısının iştirakı ilə qoyulan arenada tikinti işləri artıq başa çatmaq üzrədir.

Arenada görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verilərək bildirilmişdir ki, kompleksin fasadı xüsusi formada işlənmişdir. Burada maraqlı illüminasiya elementlərini təqdim edən ekranlar quraşdırılmışdır. Əsasən gimnastika yarışları üçün nəzərdə tutulan arenanın əhəmiyyətini artıran mühüm amillərdən biri də buranın digər idman tədbirlərinin və yarışlarının keçirilməsi üçün uyğunlaşdırılmasıdır. Yarışların miqyasından asılı olaraq, arenanın əsas hissəsində oturacaq yerlərinin sayını 5 mindən 9 min 600-ə qədər artırmaq mümkündür. Dünya standartlarına uyğun inşa olunan kompleksdə mətbuat mərkəzi, ilkin tibbi yardım məntəqəsi, xoreoqrafiya, trenajor zalları, dopinq nəzarəti, inzibati otaqlar, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir. Avropada ən yaxşı gimnastika komplekslərindən biri olacaq bu idman qurğusunda otel də yaradılmışdır.



Milli Gimnastika Arenasında bu ilin iyununda bədii gimnastika üzrə Avropa çempionatının keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, 2015-ci ildə birinci Avropa Oyunları çərçivəsində 6 gimnastika fənni üzrə yarışların, 2019-cu ildə isə bədii gimnastika üzrə 2020-ci il olimpiadasına lisenziya xarakterli dünya çempionatının burada keçirilməsi planlaşdırılır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ayrıca inşa edilmiş məşq zalında yaradılan şəraitlə tanış olmuşlar. Dövlətimizin başçısı və xanımı burada gimnastların məşq prosesini izləmişlər. Məşq zalında idmançılar üçün hər cür şərait yaradılmışdır.

Qeyd edək ki, Avropa Gimnastika İttifaqının prezidenti də arenada yaradılan şəraiti yüksək qiymətləndirmişdir. Zalda ən son gimnastika avadanlığı quraşdırılmışdır. Həmin avadanlıq Avropa Gimnastika İttifaqının və Azərbaycan Gimnastika Federasiyasının tövsiyələrinə əsasən yerləşdirilmişdir. Hazırda burada bədii gimnastika və kişilər arasında idman gimnastikası, batut, akrobatika, tamblinq üzrə yığma komandalar məşq edirlər. Burada, eyni zamanda, Beynəlxalq Gimnastika Federasiyasının təşkil etdiyi məşqçi kursları keçirilir. Son iki ayda təlim-məşq hazırlığını Türkiyədən, Qazaxıstandan, Latviyadan, Meksikadan və Macarıstandan olan qadın gimnastlar keçmişlər. Kanada, Çexiya, Yunanıstan və Finlandiyadan da qadın gimnastların yaxın zamanlarda Bakıya gəlişi gözlənilir.

Sonra dövlətimizin başçısına və xanımına milli komandanın forması təqdim olunmuş, xatirə şəkli çəkdirilmişdir.

# Azərbaycan zəngin musiqi ənənəsinə malikdir

*Fevralın 13-də Bakıda Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksinin açılış mərasimi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər. Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsmişdir.*

Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti Səyavuş Kərimi binada tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şəraitin olduğunu bildirmişdir. Qeyd edilmişdir ki, burada xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycanda mədəniyyətin inkişafı ilə bağlı həyata keçirdikləri işləri əks etdirən muzey yaradılmışdır. Muzeydə həm ulu öndərin, həm də dövlətimizin başçısının müxtəlif mədəniyyət tədbirlərində iştirakından və incəsənət xadimləri ilə görüşlərindən çəkilmiş fotoşəkillərə geniş yer verilmişdir.

Milli Konservatoriyanın kitabxanası da zəruri ədəbiyyatla təchiz olunaraq tələbələrin istifadəsinə verilmişdir. Lazımi avadanlıqla təmin edilən sinif otaqlarında tədris prosesinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılmışdır. Tələbələrin ixtiyarında olacaq idman zalında da müxtəlif yarışların keçirilməsi üçün hər cür imkan vardır.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli Konservatoriyanın müəllim heyəti, görkəmli mədəniyyət xadimləri ilə görüşmüşlər. Mərasim iştirakçılarını salamlayan Prezident İlham Əliyev yeni binanın açılışı münasibətilə konservatoriyanın



## Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksinin açılışı olmuşdur

professor-müəllim heyətini və tələbələri təbrik etmiş, yeni binada yaradılmış şəraiti yüksək dəyərləndirmişdir: «Bu gün çox gözəl bir gündür, əlamətdar bir gündür. Bakıda Azərbaycan Milli Konservatoriyasının yeni binası açılır. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Artıq konservatoriyanın da öz gözəl binası vardır. Mənə indi göstərdilər əvvəlki vəziyyəti necə idi. Əlbəttə ki, indiki vəziyyətlə onu müqayisə etmək mümkün deyildir. Bu şərait ən yüksək səviyyədədir. Gözəl sinif otaqları, konsert salonları, idman kompleksi də vardır. Mənə dedilər ki, burada səsyazma studiyası, muğam klubu vardır. Yəni bütün şərait var və əminəm ki, bundan sonra konservatoriyanın fəaliyyəti daha da uğurlu olacaqdır. Çünki daha da çox tələbə qəbul etmək üçün imkan olacaqdır. Ancaq, əlbəttə ki, burada seçim düzgün aparılmalıdır. Bunu da siz hamıdan yaxşı bilirsiniz. Bütövlükdə Azərbaycanda son illərdə tikilmiş ali məktəblərin səviyyəsi bax bu cürdür».

Azərbaycanın zəngin musiqi ənənələrinə malik olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin incəsənətinin dünya miqyasında tanındığını, xalqımızın istedadlı musiqiçilər yetişdirdiyini diqqətə çatdırmışdır: «Milli musiqimizi ifaçılar, sənətkarlar, bəstəkarlar yaşadırlar. Əminəm ki, bundan sonra da bu gözəl ənənələr davam edəcəkdir. Nəzərə almalıyıq ki, gənclərin milli musiqiyə çox böyük marağı vardır. Ölkəmizdə keçirilən müsabiqələr, festivallar bu marağı daha da artırır. Canlı efirdə göstərilən muğam festivalları, muğam müsabiqələri cavanları da, gəncləri də bu istiqamətə sövq edir. Bizim böyük bəstəkarlarımızın da yaradıcılığında milli musiqimizin sədaları eşidilir və böyük klassik əsərlərimiz də milli musiqi zəminində yaradılıbdır. Bizdə veteran ifaçılara da diqqət göstərilir. Bizim dahi bəstəkarlarımızın xatirəsi böyük hörmətlə qorunur. Bakıda Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, son illərdə Fikrət Əmirovun, Bülbülün, Qara Qarayevin abidələri ucaldılmışdır. Bu, dövlətin və xalqın dahi bəstəkarlarımızın, ifaçılarımızın xatirəsinə olan hörmətin əlamətidir».

Dövlətimizin başçısı müasir qloballaşma dövründə gənclərin milli ruh və adət-ənənələr əsasında yetişdirilməsi, onlarda milli musiqi duyumunun inkişaf etdirilməsi zərurətini də diqqətə çəkmişdir: «Eurovision» mahnı müsabiqəsində Azərbaycan ifaçıları qısa müddət ərzində birinci yeri tutmuşlar. Beynəlxalq caz festivallarında ifaçılarımız ən qabaqcıl yerlərdədir. Milli musiqi ilə bağlı keçirilən müsabiqələrdə də biz ön yerlərdəyik. Bu, nəyi göstərir? Onu göstərir ki, xalqımız istedadlı xalqdır. Çox şadam ki, milli musiqimiz digər sahələrə də - klassik musiqiyə, estrada musiqisinə də müsbət təsir göstərir. Xüsusilə indi dünyada qloballaşma prosesi gedir və bu proses istər-istəməz müxtəlif sahələri əhatə edir. Son zamanlar qloballaşmanın daha çox mənfi cəhətləri haqqında diskussiyalar gedir, bu da təbiidir. Çünki bu proses istər-istəməz milli əsasları bir növ sarsıdır. Ona görə biz elə etməliyik ki, gənc nəsil milli ruhda böyüsün, vətənpərvər, Vətənə sadiq olsun, Vətən üçün işləsin, çalışsın. Bunu etmək üçün güclü vətənpərvərlik hissi və milli ruh lazımdır. Milli ruhun da təməlində milli ənənələr, musiqi, ədəbiyyat, ana dili dayanır. Ona görə bu sahə, ümumiyyətlə, ölkəmizin gələcək inkişafı üçün çox önəmlidir».

Prezident İlham Əliyev ölkədə musiqi təhsilinin inkişafının da zəruri olduğunu vurğulamışdır: «Biz hamımız çalışmalıyıq ki, milli musiqimiz yaşasın, inkişaf etsin, zənginləşsin. Sizin kimi ifaçılar bu gün milli musiqimizi tərənnüm edirsiniz, qoruyursunuz, gənclərə də yol göstərirsiniz. Bax, televiziyada yüz minlərlə tamaşaçı muğam müsabiqələrini seyr edir, həm gənc ifaçıların ifasını dinləyir, bu, mənim üçün də maraqlıdır. Əlbəttə ki, eyni zamanda, sizin təhliliniz maraqlıdır. Çünki o təhlildə bilmədiyimiz məqamlar üzə çıxır və bir növ hamımız üçün bir dərs keçirilir. Ona görə sizin bu sahədəki fəaliyyətinizi mən bir daha qeyd etmək istəyirəm. Sizə böyük hörmətim vardır. Əminəm ki, siz bundan sonra da bu gözəl şəraitdə gənclərə öz təcrübənizi çatdıracaqsınız. Bir daha sizi təbrik edirəm».

Xalq artisti Əlibaba Məmmədov, Arif Babayev, Ağaxan Abdullayev milli musiqi sənətinə göstərdiyi yüksək diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını ifadə etmişlər.

Mərasimdə çıxış edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Milli Konservatoriyanın yeni inzibati binasının açılışını mühüm hadisə kimi dəyərləndirmişdir: «Bu, ölkəmizin milli mədəniyyətinin inkişafına böyük bir təkan verəcəkdir. Əlbəttə, belə bir şəraitdə gənc nəsil böyüyəcək, siz ustadların təcrübəsindən bəhrələnəcəkdir. Amma mən bu gün üzümü sizlərə - bizim ustadlara tutub, ilk növbədə, sizə olan dərin hörmətimi və məhəbbətimi çatdırmaq istəyirəm. Sizinlə bizim hər görüşümüz, ünsiyyətimiz mənim üçün çox dəyərlidir. Bu gün biz çox sözlər eşitdik. Bütün bunların hamısı həqiqətdir».

Tədbirin sonunda Prezident İlham Əliyevə milli musiqi alətlərimiz olan tar və kamança hədiyyə olunmuşdur. Mərasimdə muğam səsləndirilmiş və xatirə şəkli çəkdirilmişdir.


2 2013-cü il Vergilər Nazirliyi üçün uğurlu olmuşdur

3 Bələdiyyələrin işi müasirləşdiriləcək

4 Çoxfunksiyalı «ASAN ödəniş» sistemi

5 III Vergi Forumunun yekunları yüksək qiymətləndirilir

# 2013-cü il Vergilər Nazirliyi üçün uğurlu olmuşdur

*Fevralın 13-də Vergilər Nazirliyində 2013-cü ilin yekunları və 2014-cü ildə görüləcək işlərə həsr olunmuş mətbuat konfransı keçirilmişdir.*




Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov 2013-cü ildə Vergilər Nazirliyinin fəaliyyətinin yekunları ilə bağlı ətraflı məlumat verərək Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkənin inkişafı üçün möhkəm və dayanıqlı zəmin yaradıldığını qeyd etmişdir. Bildirilmişdir ki, hesabat ilində vergi daxilolmalarının təmin olunması, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, vergi nəzarətinin səmərəliliyinin yüksəldilməsi, vergi ödəyicilərinə xidmətin genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Nazir müavini dövlət büdcəsinin gəlirlərinin təmin olunmasında vergi orqanlarının üzərinə düşən mühüm vəzifələrdən danışaraq bildirmişdir ki, 2013-cü il ərzində nazirlik tərəfindən dövlət büdcəsinə 6 mlrd. 663,6 mln. manat vəsaitin ödənilməsi təmin edilmişdir ki, bu da müəyyən olunmuş proqnozlara nisbətən 263,6 milyon manat və ya 4,1% çoxdur. 2012-ci illə müqayisədə ötən il dövlət büdcəsinə 638,1 milyon manat və ya 10,6% çox vergi ödənilmişdir. Qeyri-neft-qaz sektorundan daxil olan vergilərin məbləği 2012-ci ilə nisbətən 474,9 mln. manat və ya 14,4% artaraq, 3 mlrd. 761,6 mln. manat təşkil etmişdir. Ümumilikdə, 2004-2013-cü illərdə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxilolmaların həcmi 6,6 dəfə, o cümlədən qeyri-dövlət sektorundan daxilolmalar 9,3 dəfə, vergi ödəyicilərinin sayı isə 2,5 dəfə artmışdır.

2014-cü ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcminin 7 milyard 102 milyon manat səviyyəsində müəyyənləşdirildiyini xatırladan S.Məmmədxanov qeyri-neft qaz sahələrindən daxilolmaların 4,3 milyard manat (ümumi daxilolmaların 60,5%-i) proqnozlaşdırıldığını, 2013-cü ildə həmin sahə üzrə bu göstəricinin 56,4% təşkil etdiyini bildirmişdir. Artıq 2014-cü ilin ilk ayında vergi yığımları üzrə proqnozun normal icra edilməsi müşahidə olunur və yığımların həcmi proqnoz tapşırığını üstələyir.

Cari ildə regionlardan dövlət büdcəsinə vergi ödənişlərinin həcmi 578 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır. 2013-cü ildə bu göstərici 539 milyon manat olmuşdur. Ümumiyyətlə, son illər regionlardan dövlət büdcəsinə vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artması müşahidə edilir ki, bu da bölgələrdəki iqtisadi fəallığın artmasının və vergiyə cəlb olunan yeni müəssisələrin çoxalmasının nəticəsidir.

2013-cü ildə vergi nəzarəti tədbirləri sahəsində görülən işlərdən, o cümlədən operativ nəzarət tədbirləri, səyyar və kameral vergi yoxlamalarından, eləcə də vergi hüquqpozmaları ilə mübarizə sahəsində görülən işlərdən danışan nazir müavini bildirmişdir ki, vergi inzibatçılığında səmərəli mexanizimlərin tətbiqi sayəsində vergi ödəyicilərinin dövlət büdcəsinə olan borclarının məbləği ötən il 9%, borclu vergi ödəyicilərinin ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi 3,4%-ə qədər azalmışdır. İl ərzində respublika üzrə 9504 vergi ödəyicisində, o cümlədən 5874 hüquqi şəxsdə və 3630 fiziki şəxsdə səyyar vergi yoxlaması keçirilmiş, yoxlamaların sayı 2012-ci illə müqayisədə 14,8% azalmışdır. 2013-cü il ərzində faktiki fəaliyyət göstərən vergi ödəyicilərinin 4,2%-i səyyar vergi yoxlaması ilə əhatə edilmişdir. Hesabat ilində kameral vergi yoxlamaları ilə 269,4 milyon manat əlavə vəsait hesablanmışdır ki, bu da 2012-ci illə müqayisədə 42,3 milyon manat və ya 18,6% çoxdur. Aparılmış kameral vergi yoxlamaları nəticəsində 2013-cü ildə dövlət büdcəsinə cəmi 73,5 milyon manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,7 milyon manat və ya 39,1% artıqdır. Cari ildə bu istiqamətdə tədbirlərin gücləndirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyi ilə birlikdə «Asan imza» layihəsinin, elektron və mobil imzaların tətbiqi məqsədilə Vergilər Nazirliyinin Sertifikat Xidməti Mərkəzinin fəaliyyətə başladığını bildirən nazir müavini artıq mobil rəqəmsal imza sahiblərinin sayının 23 min nəfəri, mobil elektron imzanın istifadəsi üzrə əməliyyatların ümumi sayının isə 2 milyonu ötdüyünü diqqətə çatdırmışdır. Bildirilmişdir ki, fevralın 19-da Azərbaycanın nümayəndə heyəti Brüsseldə Avropa Parlamentində Mobil İmza (Asan İmza) xidmətinin təqdimatını keçirəcək.

Bakı şəhərində Vergi ödəyicilərinə yeni xidmət mərkəzinin və genişləndirilmiş «195» Çağrı Mərkəzinin istifadəyə verilməsi ötən ilin ən mühüm hadisələri kimi qiymətləndirilmişdir. Nazirlik tərəfindən vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin sayı artırılaraq 51-ə çatdırılmışdır. Hazırkı vəziyyətdə ölkədə Vergilər Nazirliyi ən böyük sayda elektron xidmətlər göstərən dövlət qurumudur. Bu gün vergi ödəyicisi vergi orqanına gəlmədən qeydiyyatdan tutmuş bəyannamələrin göndərilməsi və vergilərin ödənişinə qədər dövlət qarşısında bütün vergi öhdəliklərini distant formatda yerinə yetirə bilir.

2013-cü ildə sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının «ASAN xidmət» mərkəzləri vasitəsilə də aparılması təmin edilmişdir. Ölkə başçısının «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanının icrası ilə bağlı son illərdə biznesin qeydiyyatı sahəsində aparılan islahatlar öz bəhrəsini verməkdədir. Fərdi sahibkarların e-qeydiyyat sistemi vasitəsilə 2013-cü ildə 27414 fiziki şəxsin vergi uçotuna alınması təmin edilmişdir. Ümumilikdə isə e-qeydiyyat sistemi tətbiq ediləndən 2014-cü il yanvarın 1-dək 82500 fərdi sahibkar elektron qaydada qeydiyyata alınmışdır. Vergi və rüsumların internet vasitəsilə ödənilməsi üçün elektron ödəniş sisteminin tətbiqinə başlanılmışdır. Ötən il 174,1 milyon manatdan artıq vəsait dövlət büdcəsinə elektron qaydada ödənilmişdir ki, bu da 2012-ci illə müqayisədə 2 dəfə çoxdur.

Vergilər nazirinin 27 dekabr 2013-cü il tarixli əmri ilə «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait» təsdiq edilmişdir. 2014-cü ildə yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqini genişləndirmək məqsədi daşıyan «Bələdiyyələrin vergi informasiya sistemi» pilot layihəsinin Binəqədi rayonunda tətbiqinə başlanmışdır.

Nazir müavini qeyd etmişdir ki, görülmüş tədbirlər biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən «Doing Business-2014» reytinq hesabatında ölkənin mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. Həmin hesabatda Azərbaycan Respublikası əvvəlki hesabata nisbətən «Biznesə başlama» indikatoru üzrə 6 pillə irəliləyərək 189 ölkə arasında 16-cı yerdən 10-cu yerə yüksəlmişdir. Eyni zamanda, hesabatda «Vergi ödənişi asanlığı» (Paying taxes) göstəricisi 2 pillə yaxşılaşmışdır. Məlumat üçün qeyd edək ki, 2014-cü il üçün bəyannamələrin doldurulması və vergilərin ödənilməsinə sərf olunan illik vaxt göstəricisi 2007-ci ilə nisbətən 4,7 dəfə azalaraq 1000 saatdan 214 saata düşmüşdür.

Nağdsız ödənişlərin stimullaşdırılması istiqamətində Vergilər Nazirliyi tərəfindən həyata keçirilən kompleks tədbirlər barədə məlumat verən S.Məmmədxanov bildirmişdir ki, 2013-cü ildə nazirlik tərəfindən 7048 POS-terminal aparatı qeydiyyata alınmış, 2014-cü il yanvarın 1-dək qeydiyyatda olan POS-terminalların ümumi sayı 31885-ə çatmışdır. Hazırda respublikada ticarət və xidmət obyektlərində 32 mindən artıq POS-terminal quraşdırılıb. 2014-cü ilin sonuna kimi POS-terminalların sayının 82,5 minə çatdırılması nəzərdə tutulmuşdur.

Nazirlik tərəfindən nağdsız hesablaşmaların stimullaşdırılmasına dair təkliflər artıq hökumətə təqdim olunmuşdur.

Muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi üzrə vergitutma bazasının və qeyri-leqal məşğulluğun leqallaşdırılması sahəsində nəzərdə tutulan tədbirlər barədə vurğulanmışdır ki, 2013-cü ildə əmək münasibətlərinə vergi nəzarətinin gücləndirilməsi nəticəsində respublika üzrə 57853 vergi ödəyicisi üzrə 200973 yeni əmək müqaviləsinin bağlanması təmin edilmişdir. Bununla bir vergi ödəyicisi üzrə əlavə bağlanmış əmək müqaviləsinin sayı 3,5-ə çatmışdır. 2014-cü ildə nazirliyin önəm verdiyi sahələrdən biri iş yerlərinin rəsmiləşdirilməsi və vergi ödənişlərinin büdcəyə ödənilməsinin təmin edilməsi ilə bağlı olacaqdır.

Nazir müavini 2013-ci ildə vergi sistemində həyata keçirilən islahatlar, vergi nəzarətinin təkmilləşdirilməsi, vergi inzibatçılığı sahəsində reallaşdırılan əlavə tədbirlər, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan digər işlər, 2014-cü ildə qarşıda duran vəzifələrin əsas istiqamətləri barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, cari ildə vergi ödəyicilərinə xidmət sisteminin təkmilləşdirilməsi və maarifləndirmə fəaliyyətlərinin gücləndirilməsi, e-auditin tətbiqi üzrə kompleks tədbirlərin görülməsi, vergi inzibatçılığının səmərəliliyinin artırılması, e-ticarətə vergi nəzarətinin təşkili, vergi borclarının alınması mexanizminin və vergidən yayınma halları üzrə istintaq mexanizmlərinin təkmilləşdirilməsi, nağdsız ödənişlərin stimullaşdırılması, əmək münasibətlərinə vergi nəzarətinin gücləndirilməsi, bələdiyyələrdə vergi qanunvericiliyinə riayət edilməsi sahəsində metodiki rəhbərliyin həyata keçirilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur.

Mətbuat konfransında media nümayəndələrini maraqlandıran suallar cavablandırılmışdır.

**Elbrus CƏFƏRLİ**

# Xidmət strukturlarına xüsusi nəqliyyat vasitələri ayrılmışdır

*Fevral ayının 18-də Vergilər Nazirliyinin inzibati binasının qarşısında vergi ödəyicilərinə xidmət mərkəzlərinin nümayəndələrinə xüsusi nəqliyyat vasitələrinin təqdim edilməsi ilə bağlı tədbir keçirilmişdir.*

Tədbirdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov bildirmişdir ki, bu avtomobillər vergi orqanları tərəfindən göstərilən xidmətlərin vergi ödəyicilərinə daha da yaxınlaşdırılması, onların insanlar üçün daha rahat və əlçatan olmasının təmin edilməsi, xidmət tədbirlərinin vergi orqanlarının nəzarət dairəsinə aid olan bütün rayonları, qəsəbə və kəndləri əhatə etməsi, vergi təbliğatının ünvanlı şəkildə aparılması məqsədilə alınmışdır və onların üzərində Vergilər Nazirliyinin atributları (nazirliyin adı, loqosu, internet saytının rəsmi ünvanı), habelə «195 Çağrı Mərkəzi» sözləri yerləşdirilmişdir.

Bu avtomobillərdən bilavasitə vergi ödəyicilərinə xidmətlərin göstərilməsi sahəsində, eləcə də Vergilər Nazirliyinin təmsil olunduğu sərgilərdə, vergi ödəyiciləri və bələdiyyələrlə keçirilən müxtəlif görüşlərdə, «vergi xidməti günləri»ndə, məktəblərdə şagird və tələbələrlə keçirilən müxtəlif tədbirlərdə və görüşlərdə istifadə ediləcəkdir.




# Qeyri-leqal əmək fəaliyyətinin qarşısının alınması üçün ciddi həll yolu

*«Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun tətbiqi barədə ölkə başçısı 2014-cü il 3 fevral tarixli fərman imzalamışdır.*

Müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına verilmiş tapşırığa əsasən, əmək müqaviləsi bildirişinin formasının və onun elektron informasiya sisteminə daxil edilməsi qaydalarının, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat formasının, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaların bir ay müddətində hazırlanması nəzərdə tutulur. Dəyişikliyə əsasən, əmək qanunvericiliyinə əmək müqaviləsi bildirişi anlayışı daxil edilmişdir.

Əmək müqaviləsi bildirişi - əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədi ilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəddir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi İdris İsayev bildirib ki, Əmək Məcəlləsinin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Bu dəyişikliklərdən sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər: «Elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə bir iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilməsi nəzərdə tutulmuşdur».

İ.İsayev bildirmişdir ki, bu qanun qüvvəyə mindiyi günədək yazılı bağlanılmış və qüvvədə olan əmək müqavilələrinə dair bildirişlərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində qeydiyyata alınması məqsədi ilə işəgötürənlərə 1 iyul 2014-cü il tarixinədək vaxt verilmişdir. Bildirişlər bu tarixə qədər elektron informasiya sisteminə daxil edilməlidir. Bundan sonra müqavilədə işçi barədə məlumatlara onun şəxsiyyətini təsdiq edən sənədin PİN kodu barədə məlumatların da əlavə edilməsi tələb olunacaqdır. Eyni zamanda, müqavilədə işəgötürən barədə məlumatlara əlavə olaraq sığortaedənin uçot nömrəsi, dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi, şəxsiyyəti təsdiq edən sənədin PİN kodu və ya fərdi identifikasiya nömrəsi barədə məlumatların da göstərilməsi tələb olunacaqdır.

Nazirlik rəsmisinin sözlərinə görə, Əmək Məcəlləsinə edilmiş dəyişikliklər məşğul əhalinin əmək hüquqlarının müdafiəsini təmin etməyə və qeyri-leqal əmək fəaliyyətinin qarşısını almağa, işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsində və əməyin ödənişinin təşkilində mövcud olan problemləri aradan qaldırmağa yönəldilmişdir. Bütün işəgötürənlər, eləcə də işçilər imzaladıqları müqavilələr barədə məlumatları əmək müqaviləsi bildirişləri vasitəsi ilə real vaxt rejimində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemindən əldə edə biləcəklər. Bununla da hər iki tərəf əmək müqaviləsi ilə üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə cavabdeh olacaqdır. Əmək müqaviləsi bildirişləri işçilər üçün əmək hüquqlarının qorunmasına təminat verir, onlara imkan yaradır ki, işəgötürəndən öz hüquqlarının icrasını tələb etsinlər. Bu sənəd işəgötürənin də əmək qanunvericiliyində nəzərdə tutulmuş hüquqlarının qorunması üçün əlavə təminat formasıdır: işəgötürən tərəf işçilərlə münasibətdə əmək müqaviləsində razılaşdırılmış konkret şərtlərin şəffaf şəkildə icrasını təmin edə bilir.

Əmək Məcəlləsində dəyişikliklər dövlət nəzarətini həyata keçirən orqanlara elektron nəzarət sisteminin qurulmasına, qeyri-leqal məşğulluğun aradan qaldırılması istiqamətində səmərəli fəaliyyət göstərməyə, sosial sığorta haqları və vergi daxilolmalarının artmasına, vətəndaşların layiqli pensiya təminatına etibarlı zəmin hazırlaycaq.

**AYTƏN**

# Bələdiyyələrin işi müasirləşdiriləcək



*«Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda III Vergi Forumunda bələdiyyə vergilərinin hesablanması və yığımı, habelə bu sahədə müasir informasiya texnologiyalarının tətbiqi məsələləri ətrafında geniş müzakirələr aparılmışdır. Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə qəzetimizə müsahibəsində forumun yekunları, habelə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili məsələləri ilə bağlı fikirlərini bölüşmüşdür.*

***- Mehdi müəllim, III Vergi Forumunda vergi inzibatçılığının təkmilləşdirilməsi və vergitutmanın aktual məsələləri ətrafında aparılmış müzakirələri necə dəyərləndirirsiniz?***

- Son 10 ildə ölkədə biznes mühitinin liberallaşdırılması, iş adamları üçün əlverişli şərait yaradılması, qeyri-neft sektoru üzrə vergi daxilolmalarının həcminin artırılması istiqamətində davamlı islahatlar həyata keçirilir. Hazırda dünyanın nüfuzlu maliyyə-iqtisadi qurumları Azərbaycanda əlverişli investisiya mühitinin formalaşmasını, elektron xidmətlər sahəsində uğurlu nəticələrin əldə olunmasını, vergi ödəyicilərinə göstərilən xidmətlərin müasir tələblər səviyyəsində qurulmasını birmənalı təqdir edirlər. İslahatların uğurla reallaşdırılması, vergitutma sahəsində inkişaf etmiş dünya ölkələrinin ən son nailiyyətlərinin öyrənilməsi və tətbiqi sahəsində Vergilər Nazirliyinin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Nazirlik işini müasir prinsiplər əsasında quraraq vergi ödəyiciləri üçün maksimum səmərəli mühit formalaşdırmağa çalışır.

Belə forumlar beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, müxtəlif ölkələrin vergi xidməti orqanları arasında işgüzar əlaqələrin genişləndirilməsi, habelə dövlət qurumları ilə biznes strukturları arasında səmərəli dialoqun qurulması, uğurlu təşəbbüslərin gerçəkləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Hesab edirəm ki, forumun uğurlu nəticələri vergi orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə təkan olacaqdır.

***- Forum çərçivəsində bələdiyyə vergilərinin hesablanması və yığımı sahəsində aparılmış müzakirələrlə bağlı hansı məqamları vurğulamaq istərdiniz?***

- Ölkəmizin sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsində bələdiyyələrin fəaliyyətinin daha da təkmilləşdirilməsi, onların vəzifə və səlahiyyətlərinin dəqiq müəyyənləşdirilməsi, habelə bu sahədə informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi, bələdiyyə vergilərinin toplanması işinin yeni dövrün tələblərinə uyğun qurulması son dərəcə vacibdir. Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi ilə yanaşı, Vergilər Nazirliyi də bu istiqamətdə qanunvericiliklə üzərinə düşən vəzifələri lazımi səviyyədə həyata keçirir. Nazirlik yerli vergi və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə dəqiq riayət edilməsi sahəsində bələdiyyələrə zəruri metodiki dəstək göstərir.

Forumun sessiyalarında müzakirələr zamanı qeyd olunduğu kimi, vergilər nazirinin 2013-cü il 27 dekabr tarixli əmri ilə «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait» təsdiq edilmişdir. Bu sənədlər bələdiyyələrin vergitutma sahəsində üzləşdikləri çətinliklərin aradan qaldırılmasına və onların maarifləndirilməsinə xidmət edir.

Ötən illərdə vergi əməkdaşlarının bələdiyyə üzvləri üçün keçirdikləri treninqlərdə bələdiyyə vergisi ödəyicilərinin uçotunun aparılması; fiziki şəxslərin torpaq və əmlak vergisinin vergitutma bazasının müəyyən edilməsi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinin hesablanması və ödənilməsi qaydaları və digər məsələlər barədə geniş izahat verilmişdir. Bələdiyyələrlə İş Mərkəzi nazirliyin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir.

***- Konkret olaraq «Bələdiyyə vergi informasiya sistemi» layihəsi barədə fikirlərinizi bilmək maraqlı olardı...***

- Son illər Azərbaycanda dövlət qurumlarının fəaliyyətində şəffaflıq və hesabatlılığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində mühüm tədbirlər həyata keçirilmiş, habelə elektron hökumət quruculuğu və e-xidmətlər sahəsində uğurlu nəticələr əldə edilmişdir. Belə bir şəraitdə bələdiyyələrin fəaliyyətinin müasirləşdirilməsinə, xüsusilə də vergi və rüsumların toplanması işinin təkmilləşdirilməsinə obyektiv zərurət yaranmışdır. Ən çox elektron xidmətlər göstərən dövlət orqanı kimi Vergilər Nazirliyi bu zərurətdən çıxış edərək, «Bələdiyyə vergi informasiya sistemi» layihəsinin reallaşdırılmasına başlamışdır.

Belə bir layihənin həyata keçirilməsi həm də «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının tələblərindən irəli gəlir. Konsepsiya ilə Vergilər Nazirliyinin qarşısında duran strateji hədəflərdən biri bələdiyyələrə müvafiq metodiki köməyin göstərilməsi, elektronlaşmanın həyata keçirilməsidir. Yeni pilot layihə maarifləndirmə məqsədilə treninqlərin keçirilməsini də nəzərdə tutur. Bütün bunlardan sonra ölkə bələdiyyələrinin «Bələdiyyə vergi informasiya sistemi»nə inteqrasiyası təmin ediləcəkdir.

Forumda bildirildiyi kimi, layihə əsasında bələdiyyələrə AVİS sistemində onlayn kargüzarlıq, vergilərin ödənilməsinin və bəyannamələrin təqdim olunmasının elektron qaydada həyata keçirilməsi imkanları yaradılmalıdır. Bu sistemlə bələdiyyələr qarşısında potensial vergi öhdəliyi olan fiziki və hüquqi şəxslər öz əmlaklarını qeydiyyatdan keçirə, qeydiyyat şəhadətnaməsi ala biləcəklər.

***- Ümumilikdə, hazırda bələdiyyə vergilərinin yığımı ilə bağlı vəziyyət necədir?***

- «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, bələdiyyə vergilərinə fiziki şəxslərin torpaq və əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi və bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi daxildir. Yerli ödənişlərin tərkibinə, həmçinin, küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər; bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən daxil olan ödənişlər; bələdiyyələrin ayırdığı torpaq sahələrində stasionar, səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödənişlər; mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişlər; hüquqi və fiziki şəxslərə məxsus ixtisaslaşdırılmış avtomobil dayanacaqları üçün ödənişlər daxildir. Bələdiyyələr yerli rəy sorğusunun nəticəsinə əsasən yerli əhəmiyyətli proqramların maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərin sərəncamında qalan mənfəət və gəlirlər hesabına ödənilən könüllü birdəfəlik ödənişlər də tətbiq edə bilərlər.

Təəssüflə vurğulamaq lazımdır ki, bir sıra bələdiyyələr ötən illərdə vergitutma sahəsində üzərlərinə düşən vəzifələri lazımi səviyyədə yerinə yetirə bilmirlər. Bu da onlara səlahiyyətləri çərçivəsində normal fəaliyyət göstərməyə imkan vermir. Dövlət uzun müddət bələdiyyələrə dotasiya verə bilməz. Bələdiyyələr əlavə gəlir mənbələri formalaşdırmalı, eyni zamanda vergiləri vaxtında və qanunvericiliyə uyğun şəkildə toplamağa çalışmalıdırlar. Lakin bu sahədə hələ də müəyyən problemlər mövcuddur. Vergi və rüsumları vaxtında toplamaq üçün, ilk növbədə, yerli xarakterli problemlərin həlli yolu ilə cəmiyyətdə bələdiyyələrə inamı və etimadı gücləndirmək lazımdır.

***- Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət hansı formada həyata keçirilir?***

- 2004-cü ildən tətbiq edilən «Bələdiyyələrə inzibati nəzarət haqqında» Qanunun icrası Ədliyyə Nazrliyinə həvalə edilmişdir. Qanuna əsasən, bələdiyyələr qəbul etdiyi qərarları 15 gün müddətində Bələdiyyələrlə İş Mərkəzinə təqdim etməlidirlər. Bu tələbi yerinə yetirməyən bələdiyyələr barəsində müvafiq intizam tədbirləri görülür. Qəbul olunan qərarlardakı qanunsuzluqların aradan qaldırılması da diqqət mərkəzindədir. Araşdırmalar nəticəsində ciddi qanunsuzluqlar aşkar olunduqda materiallar Baş Prokurorluğa göndərilir.

Bələdiyyələrlə İş Mərkəzinin vacib fəaliyyət istiqamətlərindən biri də inzibati nəzarətlə yanaşı, bədiyyələrin maarifləndirilməsidir. Bu istiqamətdə onlara qanunvericilik izah olunur, tövsiyə xarakterli məktublar göndərilir, metodiki vəsaitlər işlənib hazırlanır, seminarlar, kurslar təşkil olunur. İnzibati nəzarətin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Sonda vurğulamaq istərdim ki, 1999-cu ildə Azərbaycanda keçirilmiş ilk bələdiyyə seçkilərindən ötən 15 ilə yaxın müddətdə bələdiyyələr tam strukturlaşmış, müəyyən təcrübə əsasında vəzifələrin icrasında fəallıq göstərilmişdir. Bunun nəticəsi olaraq ölkənin sürətli inkişafında, əhalinin sosial rifahının yüksəlməsində yerli özünüidarəetmə orqanlarının rolu və iştirakı ildən-ilə artmaqdadır. Vətəndaşlar məhəlli idarəetmədə bələdiyyələrin hansı imkanlara malik olduğunu zaman keçdikcə daha yaxşı başa düşür və onlardan mövcud problemlərin həllini gözləyirlər. Bütün bunlar indiyədək yol verilən bir sıra qüsurlara baxmayaraq, bələdiyyələrin fəaliyyəti barədə müəyyən müsbət qənaətlər doğurur.

**Samir MUSTAFAYEV**

# Parlamentdə bələdiyyələrin fəaliyyətinə dair dinləmələr keçirilmişdir

*Milli Məclisin ötən həftə keçirilən iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilmişdir.*

Məruzəni təqdim edən ədliyyə nazirinin müavini Vilayət Zahirov bildirmişdir ki, 2013-cü il yerli özünüidarəetmə orqanlarının fəaliyyəti baxımından uğurlu olmuşdur: «Bir çox bələdiyyələr öz vəzifələrini layiqincə yerinə yetirərək abadlaşdırma və quruculuq işlərində fəal iştirak etmiş, sosial-iqtisadi layihələr həyata keçirmişlər. Bütövlükdə bələdiyyə idarəçiliyinin səmərəliliyi daha da artmış, əhali ilə qarşılıqlı münasibətlər xeyli yaxşılaşmış, ictimai əlaqələr güclənmişdir. Dövlət tərəfindən bələdiyyələrə kömək üçün ayrılan vəsaitin 2013-cü ildə də artırılması onların işini daha da yaxşılaşdırmış, yerli sosial-iqtisadi məsələlərin həlli imkanlarını genişləndirmişdir».

V.Zahirov bildirmişdir ki, ötən il Ədliyyə Nazirliyinə bələdiyyələrin fəaliyyəti ilə əlaqədar 1855 müraciət (2012-ci illə müqayisədə 17% çox) daxil olmuşdur. Aparılan təhlillər nəticəsində müəyyən edilmişdir ki, müraciətlərin 495-i torpaq sahəsinin ayrılması tələbi, 302-si torpaq mübahisəsi, 168-i isə torpaq sahəsinin sənədləşdirilməsi ilə bağlıdır. Beləliklə, müraciətlərin 52%-i torpaq məsələləri, digərləri isə bələdiyyələrin fəaliyyəti ilə bağlı olmuşdur. Daxil olan müraciətlərə baxılarkən onlardan 263-ü aidiyyəti üzrə göndərilmiş, 52-si üzrə inzibati nəzarət icraatı qaydasında araşdırma aparılmış, digərlərinə mahiyyəti üzrə baxılaraq cavab verilmişdir. 25 müraciət üzrə inzibati nəzarət icraatı qaydasında aparılmış araşdırma nəticəsində toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmişdir.

*Ötən il bələdiyyə idarəçiliyinin səmərəliliyi daha da artmış, əhali ilə qarşılıqlı münasibətlər xeyli yaxşılaşmış, ictimai əlaqələr güclənmişdir*

Nazirliyə təqdim olunan bələdiyyə aktlarının sayı 2012-ci illə müqayisədə xeyli artıq olmuşdur. İl ərzində hüquqi ekspertizadan keçmək üçün 59.858 bələdiyyə aktı (2012-ci illə müqayisədə 14% çox) daxil olmuşdur. Bunlardan 2684-nün qanunazidd olduğu müəyyən edilərək dəyişdirilməsi və ya ləğv edilməsi haqqında bələdiyyələrə göndərilmiş və həmin təkliflərin çoxu bələdiyyələr tərəfindən təmin edilmişdir. Bələdiyyə üzvləri üçün keçirilmiş 22 kursda 1633 bələdiyyə qulluqçusu iştirak etmişdir.

Məruzədə göstərilmişdir ki, ötən il prokurorluq orqanlarına göndərilmiş 25 materialdan 7-si üzrə cinayət işi başlanılmış, onlardan 3-ü üzrə istintaq yekunlaşaraq müvafiq məhkəmələrə göndərilmişdir. Bir cinayət üzrə ittiham hökmü çıxarılmışdır.

2013-cü il ərzində 3460,5 hektar torpaq sahəsinin qanunsuz ayrılmasının qarşısı alınmış, həyata keçirilən tədbirlər nəticəsində qanunsuz olaraq icarəyə verilmiş 3196,66 ha torpaq sahəsi, xüsusi mülkiyyətə verilmiş 242,78 ha torpaq sahəsi, istifadəyə verilmiş 21,05 ha torpaq sahəsi bələdiyyə mülkiyyətinə qaytarılmışdır.

**Rəşad SADIQOV**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

Rakurs

# Vergi münasibətlərinin iştirakçıları

Vergi münasibətləri hüquqi-iqtisadi xarakter daşımaqla vergilərin müəyyən olunması, tətbiqi, vergi öhdəliklərinin yerinə yetirilməsi, vergi nəzarətinin həyata keçirilməsi zamanı vergi münasibətlərinin iştirakçıları arasında yaranır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, vergi münasibətlərinin iştirakçılarına vergi ödəyicisi olan hüquqi və fiziki şəxslər, dövlət vergi orqanları, vergi agentləri, gömrük orqanları, maliyyə orqanları, yerli özünüidarəetmə orqanları və qanunvericiliklə nəzərdə tutulan hallarda vergi ödəyicilərindən vergilərin ödənilməsi üçün vəsaitlərin alınmasını və büdcəyə köçürülməsini həyata keçirən digər səlahiyyətli orqanlar aiddir. Bununla belə, vergi münasibətləri daha çox vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranır. Vergi ödəyicisi dedikdə, Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs nəzərdə tutulur. Yəni vergi ödəyicisi həm fiziki şəxs, həm də hüquqi şəxs statusunda ola bilər. Vergi ödəyiciləri vergitutmanın bütün mərhələlərində yaranan münasibətlərdə, o cümlədən vergi orqanlarında qeydiyyata alınma və qeydiyyatdan çıxarılma, vergilərin hesablanması, ödənilməsi, vergi yoxlamalarının həyata keçirilməsi, vergi məsuliyyətinə cəlb olunma və vergi mübahisələrinin həlli ilə bağlı bütün proseslərdə iştirak edirlər. Vergi ödəyicisi vergi münasibətlərində öz səlahiyyətli nümayəndəsi vasitəsi ilə də iştirak edə bilər.

Vergi ödəyiciləri Vergi Məcəlləsi ilə müəyyən olunmuş hallarda həm də vergi agenti qismində çıxış edə bilərlər. Vergi agenti gəlir ödədiyi şəxsdən ödəmə mənbəyində vergini hesablamağa, tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxsdir. Məcəlləyə əsasən, vergi orqanlarında qeydiyyatdan keçmiş hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər və qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi vergi agenti ola bilər.

Vergi münasibətlərinin əsas iştirakçısı kimi dövlət vergi orqanları çıxış edir. Azərbaycan Respublikasının dövlət vergi orqanlarını Vergilər Nazirliyi və bilavasitə ona tabe olan vergi orqanları təşkil edir. Dövlət vergi orqanları vergilərin tam və vaxtında ödənilməsinə nəzarəti həyata keçirirlər (yerli (bələdiyyə) vergilər, habelə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş yol vergisi, ƏDV və aksiz istisna olmaqla).

Vergi orqanları öz vəzifələrini həm də mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, gömrük, maliyyə və digər dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirirlər.

*Vergi ödəyicilərindən vəsaitlərin alınmasının və büdcəyə köçürülməsinin həyata keçirilməsi ilə bağlı proseslərdə digər dövlət orqanları, başqa səlahiyyətli orqanlar və vəzifəli şəxslər də vergi münasibətlərinin iştirakçısı kimi çıxış edə bilərlər*

Dövlət gömrük orqanları mallar Azərbaycan Respublikasının gömrük sərhədindən keçirildikdə vergilərin tutulması sahəsində Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və digər qanunları ilə müəyyən edilmiş hüquqları və vəzifələri həyata keçirərkən vergi münasibətlərində iştirak etmiş olurlar.

Vergi Məcəlləsinə əsasən, Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezidentlərdən yol vergisinin, mallar Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən ƏDV və aksizin tətbiqinə nəzarət dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmişdir .

Vergi münasibətlərinin daha bir iştirakçısı sayılan şəxslərə dövlət maliyyə orqanları aiddir. Dövlət maliyyə orqanlarına Azərbaycan Respublikası Maliyyə Nazirliyi, onun agentlikləri, dövlət nəzarəti xidmətləri və yerli bölmələri aiddir. Dövlət maliyyə orqanları büdcə-vergi siyasətinin formalaşmasında, dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnoz göstəricilərin müəyyən olunmasında, büdcəyə artıq ödənilmş vergi məbləğlərinin qaytarılması proseslərində vergi münasibətlərinin iştirakçısı kimi çıxış edirlər. Vergilərin tutulması, ödənilməsi ilə bağlı proseslərdə vergi münasibətlərində yuxarıda göstərilən şəxslərdən başqa, digər dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, başqa səlahiyyətli orqanlar və digər vəzifəli şəxslər də iştirak edə bilərlər.

Vergi Məcəlləsinə əsasən, yerli vergilərin (bələdiyyə vergilərinin) qanunvericiliyə uyğun olaraq hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət bələdiyyələrin vergi xidməti orqanları tərəfindən həyata keçirilir. Bələdiyyələrin vergi xidməti orqanları və onlar tərəfindən yerli (bələdiyyə) vergilərə nəzarətin həyata keçirilməsi «Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə» ilə müəyyən olunmuşdur.

Qanunvericiliklə nəzərdə tutulan hallarda vergi ödəyicilərindən vəsaitlərin alınmasının və büdcəyə köçürülməsinin həyata keçirilməsi ilə bağlı proseslərdə digər dövlət orqanları, başqa səlahiyyətli orqanlar və vəzifəli şəxslər də vergi münasibətlərinin iştirakçısı kimi çıxış edə bilərlər. Bunlara fiziki şəxslərdən yol vergisinin tutulmasında və köçürülməsi sahəsində Daxili İşlər Nazirliyi, avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyətini həyata keçirən vergi ödəyicilərindən sadələşdirilmiş verginin tutulması sahəsində Nəqliyyat Nazirliyi, məhkəmənin qərarı əsasında vergi ödəyicilərindən vergi borclarının tutulub büdcəyə köçürülməsi sahəsində məhkəmə icraçıları, vergi cinayətlərinə görə məsuliyyətə cəlb olunma sahəsində Baş Prokurorluq aid edilir.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## Əmək münasibətlərinin rəsmiləşdirilməsinin hüquqi əsasları

***İşçi ilə əmək münasibətlərinin rəsmiləşdirilməməsi hansı nəticələrə səbəb ola bilər?***

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7.2-ci maddəsinə əsasən, bu məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək münasibətləri elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır. Həmin maddənin 2-1-ci hissəsində isə qeyd edilir ki, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranır.

Bundan əlavə, Əmək Məcəlləsinin 49.1-ci maddəsinə uyğun olaraq, həmin məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək müqaviləsinin bağlanması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər 1000 manatdan 3000 manatadək, vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər 20000 manatdan 25000 manatadək məbləğdə cərimə edilir. Bu maddədə göstərilən əməllər, Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda, tətbiq edilir.

Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçinin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi 7000 manatdan 10000 manatadək məbləğdə cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə, eyni əməllər təkrar törədildikdə isə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu maddədə «xeyli sayda» deyərkən, on nəfər və daha çox işçinin sayı nəzərdə tutulur.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Vergi qanunvericiliyinə əlavə və dəyişikliklər təsdiq edilmişdir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vergi Məcəlləsinə bəzi əlavə və dəyişikliklərlə bağlı bir neçə qanunvericilik aktını təsdiq etmişdir.*

«Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi haqqında» Qanuna əsasən, 2014-cü il yanvarın 1-dən əhalinin bank və digər kredit təşkilatlarındakı əmanətləri gəlir vergisindən azad edilib. Bununla da banklarda əmanətləri olan vətəndaşların depozitlərinin vergiyə cəlb olunması prosesi daha bir il müddətində uzadılıb. Azərbaycan hökumətinin bu qərarı ölkədə bank sisteminin maliyyə vəziyyətini gücləndirilmək, əhalinin banklara depozit qoyuluşlarını stimullaşdırmaq məqsədi daşıyır.





Bank sektorunun inkişafına xidmət edən güzəştlərlə bərabər, sığorta və təkrarsığorta şirkətlərinin kapitallaşma səviyyəsinin artırılmasının stimullaşdırılması məqsədilə həmin qurumların mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hissəsi də mənfəət vergisindən azad edilib.

Hesablamalara görə, əhalinin banklardakı əmanətlərindən bir ildə əldə olunan dividendlərin ümumi həcmi təxminən 200 milyon manatdır. Həmin gəlirlərə vergi tətbiq edilsə, il ərzində dövlət büdcəsinə əhəmiyyətli məbləğdə əlavə vəsait daxil ola bilər. Azərbaycan hökuməti vergi güzəştləri ilə bankların kapitallaşmasına şərait yaratmaqla yanaşı, əhalinin dividend əldə etmək imkanlarını da stimullaşdırır. Nəticədə il ərzində banklara əmanət qoyuluşlarının həcmi 30% (500 milyon manatdan çox) artır. Ekspertlərin fikrincə, depozitlərin vergidən azad olunması əmanət qoyuluşlarının 2014-cü ildə də artımına imkan verəcək. Bu addımın atılması həm də banklara 2014-cü ilin sonuna kimi öz nizamnamə kapitallarını artırmaqla bağlı qoyulmuş tələbləri yerinə yetirmələri üçün dəstək xarakteri daşıyır.

*Əhalinin banklardakı əmanətlərindən bir ildə əldə olunan dividendlərin ümumi həcmi təxminən 200 milyon manat təşkil edir*

Prezidentin digər sərəncamı ilə təsdiqlənmiş «Körpələr evlərinə, körpələr evi-uşaq bağçalarına, uşaq bağçalarına, xüsusi uşaq bağçalarına və uşaq evlərinə müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanun bu il yanvarın 1-dən qüvvəyə minib. Qanuna əsasən, körpələr evləri, körpələr evi-uşaq bağcaları, xüsusi uşaq bağçaları və uşaq evləri 10 il müddətinə hüquqi şəxslərin mənfəət vergisini və sadələşdirilmiş vergini ödəməkdən azad edilmişlər. Bu güzəşt gələcəkdə ölkəmizdə yeni uşaq bağçalarının, körpələr evlərinin tikilib istifadəyə verilməsinə və fəaliyyətinə stimul verəcək.

Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadənin fikrinə görə, qanunun həyata keçirilməsi ölkədə məktəbəqədər müəssisələrin çatışmazlığı probleminin həllinə, bu sahədə xidmət bazarının inkişafına böyük dəstək olacaq. Z.Səmədzadə bildirmişdir ki, məktəbəqədər müəssisələrə verilmiş vergi güzəştləri təqdim olunan xidmətlərin keyfiyyətinin artırılmasına, bazarın bu seqmentində qiymətlərin liberallaşmasına, xüsusilə regionlarda bu cür müəssisələr şəbəkəsinin yaradılmasına, sərmayə qoyulması üçün sahibkarları stimullaşdırmağa kömək edəcək.

Təhsil Nazirliyinin məlumatlarına görə, hazırda ölkədə 1700-ə yaxın uşaq bağçası fəaliyyət göstərir ki, onlardan 1637-si dövlət, 40-ı özəl müəssisələrdir. Ümumilikdə respublikanın məktəbəqədər müəssisələrində 111 mindən bir qədər çox uşaq tərbiyə alır ki, bu da tələbatın təxminən 15%-nin ödənilməsi deməkdir. Müqayisə üçün qeyd edək ki, Avropa ölkələrində bu göstərici 90%-dən artıqdır.

Ekspertlərin qənaətinə görə, yeni qəbul edilmiş qanun məktəbəqədər təhsil sahəsində vəziyyətin keyfiyyətli şəkildə dəyişdirilməsinə, sağlam rəqabətin yaradılmasına, maddi-texniki imkanların gücləndirilməsinə müsbət təsir göstərəcək. Tətbiq edilən vergi güzəştlərinin bu sahəyə böyük investisiyaların cəlb olunmasına yardımçı olacağı gözlənilir.

Ölkə başçısının digər bir sərəncamı ilə Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması hallarının aşkar edilməsi ilə bağlı müddəa - Vergi Məcəlləsinin 58.10-cu maddəsi aşağıdakı redaksiyada veriləcək:

«Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir».

**Rəşad SADIQOV**

# Çoxfunksiyalı «ASAN ödəniş» sistemi

*Prezident İlham Əliyev Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi («ASAN xidmət») mərkəzlərində həyata keçirilən xidmət növlərinin və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı fərman imzalayıb. Sənəddə bir sıra xidmətlərlə bağlı rüsum və ödənişlərin birbaşa «ASAN xidmət» mərkəzləri vasitəsilə həyata keçirilməsinin təmin olunması üçün geniş elektron infrastruktura malik çoxfunksiyalı "ASAN ödəniş" sistemi yaradılması nəzərdə tutulub.*



Yeni sistemə inzibati cərimə növlərindən tutmuş rüsum və vergilərin ödənişinə kimi məsələlərin həll olunması daxildir. Fərmanda qeyd olunduğu kimi, «ASAN ödəniş» sisteminin təşkili məqsədi ilə «ASAN xidmət» zəruri informasiya resursları və digər e-xidmətlərlə təmin ediləcək. Yeni ödəniş sistemi ilə inzibati cərimələrin xüsusi ödəmə terminalları və mobil telefon aparatları vasitəsilə elektron qaydada ödənilməsinə şərait yaradılması nəzərdə tutulur. Fərdi yaşayış evləri və mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların və texniki pasportların verilməsi, yaşayış yeri üzrə qeydiyyata alındığı və ya qeydiyyatdan çıxarıldığı hallarda çağırışçıların və hərbi vəzifəli vətəndaşların hərbi qeydiyyata alınması və hərbi qeydiyyatdan çıxarılması «ASAN xidmət»ə həvalə olunub.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sosial innovasiyalar və strateji araşdırmalar şöbəsinin baş məsləhətçisi Ulduzə Xəlilovanın sözlərinə görə, fəaliyyətə başladığı gündən bu qurum müştərilərin rahatlığını, məmnunluğunu və daha asan ödəniş imkanları ilə əhatə olunmalarını əsas qayəsi hesab edir. İndiyədək dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasının və elektron xidmətlərin təşkili prosesinin təkmilləşdirilməsi sahəsində xeyli irəliləyişlər əldə olunub. Hazırda «ASAN xidmət» mərkəzlərinin fəaliyyət dairəsinə daxil olan əhalinin sayı 3 milyon 500 min nəfərdən çoxdur. İndiyədək mərkəzə 1 milyon 100 mindən artıq insan müraciət edib və müxtəlif xidmətlərdən yararlanıb. Mərkəzlərin birbaşa əhatə etmədiyi rayonlarda xüsusi texniki vasitələrlə təchiz edilmiş avtobuslar vasitəsilə 60 minədək vətəndaşa səyyar xidmət göstərilib. Bundan başqa, fevralın 1-dən vətəndaşların istəyindən asılı olaraq, onların mərkəzə gəlmədən arzuladığı yerdə xidmətlərdən yararlanması üçün səyyar xidmətlər də həyata keçirilməyə başlanılıb. Səyyar xidmət kənardan qulluğa və yardıma ehtiyacı olan əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün əlavə ödəniş aparılmadan həyata keçirilir.

«ASAN» xidmət mərkəzlərində 9 dövlət orqanı tərəfindən əhaliyə 25 adda xidmət göstərilirdi, bundan sonra həmin xidmətlərin sayı 30-u keçəcək. Yeni xidmətlərlə bağlı vətəndaşlar məlumatlandırılacaq. Yeni xidmət növləri, xüsusilə də inzibati cərmələrin ödənilməsi, cərmələrin elektron vasitələrlə, o cümlədən mobil telefonlarla ödənilməsi vətəndaşlara izah olunacaq. Yeniliklərin həyata keçirilməsi vətəndaşla dövlət orqanı əməkdaşı arasında birbaşa təmasın aradan qalxmasına, şəffaflığın və operativliyin güclənməsinə, inzibati cərimələrin ödənişindən yayınma hallarının minimuma enməsinə, korrupsiya və digər mənfi halların qarşısının alınmasına imkan yaradacaq.

Multimedia Mərkəzinin rəhbəri, Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz hesab edir ki, ölkədə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı davamlı işlər geniş xarakter alıb və bu prosesdə şəffaf və dinamik bir qurum kimi özünü təsdiq etmiş «ASAN xidmət»in fəaliyyətinin güclənməsi, quruma əlavə səlahiyyətlər verilməsi mühüm əhəmiyyət kəsb edir. Son dövrlər «ASAN xidmət» mərkəzlərinin coğrafiyasının genişlənməsi, göstərilən xidmət növlərinin və çeşidlərinin artırılması sayəsində vətəndaşlar daha keyfiyyətli və şəffaf xidmətlərdən faydalanacaqlar.

Onu da qeyd edək ki, fərmanın icrası ilə bağlı Vergilər Nazirliyinə ödənişlərin «ASAN xidmət» mərkəzləri və digər aidiyyəti qurumlarla birgə «ASAN ödəniş» sisteminə inteqrasiya olunması barədə tapşırıq verilib. Nazirliklə «ASAN xidmət» mərkəzlərinin birgə fəaliyyəti sayəsində inzibati cərimələrin yanacaqdoldurma məntəqələrində, avtomobil dayanacaqlarında, ticarət mərkəzlərində və əhalinin intensiv istifadə etdiyi digər ictimai yerlərdə xüsusi ödəmə terminalları ilə ödənilməsi təmin olunacaq. Vətəndaşlar məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitləri də xüsusi ödəmə terminalları ilə, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə tətbiq edilən inzibati cərimələri mobil telefon aparatları vasitəsilə ödəyə biləcəklər.

«ASAN ödəniş» sisteminin yaradılması nağdsız ödənişlərin həcminin artması baxımından da mühüm əhəmiyyət kəsb edir. Təcrübə təsdiq edir ki, «»ASAN xidmət» mərkəzləri dövlət qurumlarına ödənilən müxtəlif təyinatlı rüsumların elektron qaydada həyata keçirilməsi üçün ən rahat və etibarlı vasitədir. «Dövlət rüsumu haqqında» Qanuna əsasən, bütün dövlət qurumları və xidmət müəssisələri, icra orqanları tərəfindən müəyyən olunmuş rüsumların, ödənişlərin, vergilərin, eləcə də sahibkarlıq fəaliyyəti ilə bağlı lisenziyaların alınmasına görə ödənilməli olan vəsaitlər nağdsız qaydada həyata keçirilməlidir. Hazırda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, notariat fəaliyyəti, şəxsiyyət və sürücülük vəsiqələrinin verilməsi və dəyişdirilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi, əmək pensiyalarının təyin edilməsi, kommersiya hüquqi şəxslərin qeydiyyatı və digər xidmətlərlə bağlı rüsumların ödənilməsi «ASAN xidmət»in səlahiyyətlərinə aiddir.

**Elbrus CƏFƏRLİ**

# III Vergi Forumunun yekunları yüksək qiymətləndirilir

*«Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda III Vergi Forumunda ölkənin vergi sisteminin mövcud durumu və bu sahədə həyata keçiriləcək islahatlar hərtərəfli müzakirə olunmuş, vətəndaş cəmiyyəti və biznes strukturları ilə əlaqələrin daha da genişləndirilməsi zərurəti önə çəkilmişdir.*

*Milli Məclisin deputatları, müxtəlif dövlət qurumlarının məsul vəzifəli şəxsləri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri açıqlamalarında Forumun yekunlarına yüksək qiymət vermişlər.*

***Xanhüseyn Kazımlı, Milli Məclisin deputatı, Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri***



- Vergi xidməti orqanları xüsusən də son 10 ildə sürətli inkişaf yolu keçmişlər. Bu cür tədbirlər vergi sisteminin uğurlarını nümayiş etdirməklə yanaşı, dünyada baş verən mütərəqqi yenilikləri öyrənmək və tətbiq etmək, informasiya və kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən bəhrələnmək təcrübəsini aşkara çıxarır. Bir daha təsdiqlənir ki, iqtisadiyyatın ahəngdar inkişafının təmin edilməsində dövlət idarəçiliyinin çox mühüm tərkib hissəsi olan vergi sistemi böyük rol oynayır.

Biznesə başlama prosedurlarının sadələşdirilməsi və sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi üzrə vahid dövlət qeydiyyatının həyata keçirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, vergi ödəyicilərinin mənafeyinin qorunması, vergi dərəcələrinin aşağı salınması istiqamətində atılan addımlar ölkədə sahibkarlığın inkişafina ciddi təkan vermişdir. Fiziki və hüquqi şəxslərin onlayn rejimdə qeydiyyata alınması və digər məqsədyönlü tədbirlər ölkədə biznes mühitinin daha da sağlamlaşdırılmasına, sahibkarlığın inkişafina müsbət təsir göstərir.

Fürsətdən istifadə edərək ölkəmizdə beynəlxalq standartlara uyğun müasir vergi sisteminin tətbiqinə nail olmuş vergi xidməti əməkdaşlarını peşə bayramları münasibətilə ürəkdən təbrik edir, onlara möhkəm cansağlığı, işlərində uğurlar arzulayıram.

***Çingiz Qənizadə, Milli Məclisin deputatı***



- Dünya maliyyə böhranı dövründə Azərbaycanın iqtisadi qüdrətinin əsaslı şəkildə möhkəmlənməsində dövlətimizin iqtisadi suverenliyinin əsas dayaqlarından olan çevik və səmərəli vergi sisteminin böyük payı vardır.

Vergilər Nazirliyi müstəqil Azərbaycan Respublikasının çox mühüm icra orqanı, sürətli iqtisadi inkişafı təmin edən yeni iqtisadi strategiyanın uğurla həyata keçirilməsinin vacib strukturudur. III Vergi Forumu göstərdi ki, nazirlik son illər vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi, vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində mühüm nailiyyətlər əldə etmişdir. Qeyri-hökumət təşkilatları, biznes dairələri ilə qurulmuş səmərəli əlaqələr də vergi ödəyiciləri və vergi orqanları arasında işgüzar münasibətlərin genişləndirilməsi baxımından yaxşı nəticələr verir.

Əminəm ki, vergi işçiləri uğurlarını daha da artıracaq, müstəqil Azərbaycanın inkişaf tarixinə yeni-yeni səhifələr yazacaqlar.

***Sevinc Həsənova, iqtisadiyyat və sənaye nazirinin müavini***



- Vergilər Nazirliyi ənənəvi olaraq keçirdiyi Vergi Forumunda Azərbaycanın vergi sistemi haqqında beynəlxalq iştirakçılara geniş məlumat verir, ölkə iqtisadiyyatının müasir vəziyyəti, görülən işlər, nəzərdə tutulan perspektiv planlarla bağlı açıq və geniş müzakirələr təşkil edir. Birinci və ikinci forumlardan keçən dövr ərzində həm dünyada, həm də ölkədə mühüm hadisələr baş vermişdir və hazırda müxtəlif istiqamətlərdə gedən son proseslərlə bağlı geniş fikir mübadiləsinin aparılması mühüm əhəmiyyət kəsb edir.

İqtisadiyyatın diversifikasiyasının gücləndirilməsi, müasir texnologiyaların tətbiqi və mütərəqqi təcrübənin mənimsənilməsi məqsədilə ölkədə geniş sənaye quruculuğu həyata keçirilir, sənaye və yüksək texnologiyalar parkları qurulur. İnvestorların cəlb olunması üçün müddətli vergi güzəştləri tətbiq edilir. Bu güzəştlər qeyri-neft sektoruna investisiyaların stimullaşdırılmasına, texnoloji modernizasiyaya, qeyri-neft məhsullarının ixracının artırılmasına, yüksək ixtisas hazırlığı tələb edən iş yerlərinin yaradılmasına zəmin yaradacaqdır.

***İltimas Məmmədov, rabitə və informasiya texnologiyaları nazirinin müavini***

- Vergilər Nazirliyi müstəqil Azərbaycan Respublikasının çox mühüm icra orqanı, sürətli iqtisadi inkişafı təmin edən yeni iqtisadi strategiyanın uğurla həyata keçirilməsinin vacib strukturudur. Son illərdə həm nazirliyin aparatında, həm də yerli vergi orqanlarında aparılan köklü islahatlar daha səmərəli və funksional əsasda fəaliyyət göstərən, beynəlxalq standartlara uyğunlaşdırılmış idarəetmə sisteminin yaranmasına gətirib çıxarmışdır. Bunun nəticəsi olaraq, vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi, vergilərin



məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində çox mühüm uğurlar əldə edilmişdir.

Ölkədə mərkəzi icra orqanları arasında əhaliyə elektron xidmətlərin göstərilməsində mühüm irəliləyişlər əldə etmiş əsas dövlət qurumlarından biri Vergilər Nazirliyidir. Vergilər Nazirliyi elektron hökumətin nümunəsini yaradan, İKT-yə keçid prosesində öndə olan qurumdur. Vergi xidmətlərinin daha rahat və vaxt itirmədən elektron formada həyata keçirilməsi, nazirliyə ünvanlanan müraciətləri operativ şəkildə cavablandırılması hamı tərəfindən yüksək qiymətləndirilir. İKT-nin son yeniliklərinin tətbiqi, informasiyanın açıqlığı və digər məsələlər nazirliyin internet saytı vasitəsilə vətəndaşların işini asanlaşdırır. Çevik və dolğun olması, yüksək funksionallığı, xüsusilə də bütün gərəkli e-xidmətləri təklif etməsi baxımından nazirliyin internet saytı doğrudan da başqalarına örnək ola biləcək durumdadır.

***Nərgiz Nəsrullayeva-Müdüroğlu, Amerika Ticarət Palatasının icraçı direktoru***



- Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən yüksək səviyyədə təşkil edilmiş III Vergi Forumu üzvlərimiz arasında böyük sevinclə qarşılanmışdır. Vergilər naziri açılış nitqində nazirliyin həyata keçirdiyi real işlər və təklif etdiyi perspektivlərə dair iştirakçıları ətraflı məlumatlandırmışdı və bu da forumun necə faydalı olacağına əsaslı zəmin yaratmışdı. Forum vergi ödəyicilərinin məlumatlandırılması baxımından olduqca önəmli platforma olduğu üçün tədbirə bir sıra üzvlərimizin dəvət olunması və iştirakı nazirliklə təşkilatımızın sıx əməkdaşlığının əyani göstəricisidir. Səmimi və səmərəli əməkdaşlığa görə nazirliyin rəhbərliyinə dərin minnətdarlıq edir, əlaqələrimizin eyni ruhda artan templə davam edəcəyinə ümidvar olduğumuzu bildiririk.

***Hakan Erbaş, Türkiyə Petrolları A.O. şirkətinin nümayəndəsi:***

- «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» adlı III Vergi Forumu ölkənin vergi sisteminin son illərdəki uğurlarının istər Azərbaycan cəmiyyətinə, istərsə də dünyaya təqdimatı baxımından yeni imkan açmışdır. Ölkənin vergi sistemində aparılan islahatlar vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin yeni müstəvidə qurulmasına, partnyorluq əlaqələrinin təşəkkülü və inkişafına bəhrəsini verəcəkdir.

Onu da böyük qürur hissi ilə demək istərdim ki, Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının birgə işlənməsi layihələrində iştirak edən şirkətimiz əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının uğurla həyata keçirilməsinə töhfəsini verməkdədir.



Fürsətdən istifadə edərək, Azərbaycanın vergi orqanları əməkdaşlarını peşə bayramları münasibətilə təbrik edir, onlara yeni-yeni uğurlar arzulayıram.

***Rəhim Hüseynov, Azərbaycan Marketinq Cəmiyyətinin sədri***

- Vergilər Nazirliyi son illər biznes mühitinin inkişafı və liberallaşdırılması, vergi ödəyiciləri üçün daha normal fəaliyyət imkanlarının yaradılması istiqamətində sistemli iş aparır. Bunun nəticəsidir ki, özünəməxsus inkişaf modeli ilə tanınan Azərbaycanın vergi sistemi də regionda mütərəqqi model kimi qəbul olunur. Bir sıra MDB ölkələri respublikamızın vergi sistemində tətbiq olunan yenilikləri böyük maraqla izləyir, onları öz ölkələrində tətbiq etmək üçün bizim köməyimizə ehtiyac duyurlar. Bu baxımdan, xüsusən də vergilərin elektron formada ödənilməsi, fiziki və hüquqi şəxslərin dövlət qeydiyyatının real vaxt rejimində - bir neçə dəqiqə ərzində reallaşmasını, partnyorluq sazişlərinin imzalanmasını qeyd edə bilərəm.



Təqdirəlayiq haldır ki, nazirlik tətbiq olunan yeniliklərlə kifayətlənmir, daim axtarışlar edir, eyni zamanda elm adamlarının da təkliflərini nəzərə alır. Əminəm ki, Vergilər Nazirliyi fəaliyyətini bundan sonra da müasir üsul və vasitələr əsasında quraraq ölkəmizin davamlı inkişafına öz dəyərli töhfəsini verəcəkdir.

**S.MUSTAFAYEV,**
**E.CƏFƏRLİ**

## Hər kəsin vətəndaşlıq və Konstitusiya borcu

Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsinə əsasən, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Konstitusiyanın 73-cü maddəsinə əsasən isə qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

Bu gün ölkəmizdə azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq üçün hər cür şərait yaradılmasının nəticəsidir ki, dövlət büdcəsinə vergi və sair daxilolmalar 2012-ci ildə 6 milyard 025 milyon 366,5 min manat, 2013-cü ildə isə 6 milyard 663 milyard 633,4 min manat olmuşdur. Bu məbləğin əsas hissəsi isə sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin payına düşür və onların əksəriyyəti öz Konstitusiya vəzifələrini vaxtında və vicdanla yerinə yetirirlər.

Bununla belə, qanun pozuntuları da var və dünyanın bütün dövlətlərində olduğu kimi, ölkəmizdə də iqtisadi sahədə cinayətkarlıq, o cümlədən vergiləri ödəməkdən yayınma ilə ciddi mübarizə aparılır. Bir sıra inkişaf etmiş ölkələrdə, eləcə də ABŞ-da vergidən yayınmaya görə müəyyən hüquqi nəticələrə səbəb olmaqla məhkumluq yaradan cinayət məsuliyyəti müəyyən edilmişdir. Respublikamızda isə daha çox ədalət və humanizm prinsiplərinə söykənən qanunvericiliyə əsasən, iki min manatadək məbləğdə vergiləri ödəməkdən yayınmaya görə maddi məsuliyyət müəyyən edilmişdir.

Ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında bir sıra yeni səlahiyyətlər, o cümlədən ibtidai araşdırma səlahiyyəti verilməklə vergi xidməti orqanlarının rolu durmadan artır. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən indiyədək cinayət işləri müvəffəqiyyətlə istintaq edilmiş, dövlət büdcəsindən yayındırılmış pul vəsaitlərinin büdcəyə ödətdirilməsi təmin olunmuş və preventiv tədbirlər nəticəsində çoxsaylı iqtisadi cinayətlərin qarşısı alınmışdır. Faktiki fəaliyyət üçün deyil, yalnız vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmaq naminə formal olaraq təşkil edilmiş çoxsaylı hüquqi və fiziki şəxslərin cinayətkar fəaliyyətinə, demək olar ki, son verilmişdir.

*2013-cü ildə vergi sahəsində hüquqpozmalarla bağlı qeydə alınmış cinayətlərin açılma faizi 95,4% təşkil etmişdir*

Vegilər Nazirliyi rəhbərliyinin həyata keçirdiyi uğurlu islahatların nəticəsi olaraq vergi ödəməkdən yayınma cinayətlərinə qarşı mübarizə işində Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti mobil bir quruma çevrilərək digər aidiyyəti qurumlar və hüquq-mühafizə orqanları ilə birlikdə ayrı-ayrı cinayət faktlarının aşkar edilməsi, təhqiqatı, istintaqı və əməliyyat-axtarış tədbirlərinin tətbiqi ilə bağlı öz işinin öhdəsindən ləyaqətlə gəlir.

Bir faktı qeyd etmək yerinə düşər ki, 2001-2005-ci illərdə 472 nəfər haqqında 377 cinayət işinin istintaqının tamamlandığı və dövlətə vurulmuş 15 milyon 477 min 874 manat məbləğində ziyan ödətdirildiyi halda, 2012-ci ildə 307 nəfər haqqında 380 cinayət işinin istintaqı tamamlanmış və bəraətverici əsaslar olmadan cinayət işinin başlanılması rədd edilimiş materiallar üzrə 9 milyon 471 min 455 manat məbləğində ziyan ibtidai araşdırma mərhələsində ödətdirilmişdir. 2013-cü ildə 331 nəfər barədə 383 cinayət işinin istintaqı tamamlanmış, dövlətə vurulmuş 34 milyon 565 min 846 manat məbləğində ziyan ödətdirilmişdir. 2012-2013-cü illərdə istintaqı tamamlanmış cinayət işləri üzrə cinayət prosesində 106 milyon 326 min 108 manat ziyanın təqsirləndirilən şəxslərdən alınıb dövlət büdcəsinə ödənilməsi haqqında mülki iddialar qaldırılmışdır ki, onların da hamısı məhkəmələr tərəfindən təmin olunmuşdur. 2013-cü ildə vergi sahəsində hüquqpozmalarla bağlı qeydə alınmış cinayətlərin açılma faizi 95,4% təşkil etmişdir.

Beləliklə, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti indiyədək istintaq fəaliyyəti ilə bağlı yüksək göstəricilərə nail olmuş, vergidən yayınma cinayətləri üzrə istintaq və məhkəmə, prosessual rəhbərlik və prokuror nəzarəti təcrübəsi qazanılmış, peşəkar kadr potensialı formalaşdırılmışdır.

Son illərdə vergidən yayınma cinayətlərinə görə ölkəmizdə fəaliyyət göstərən xarici vətəndaşlar da cinayət məsuliyyətinə cəlb olunmuş, yaxud istintaqdan qaçıb gizləndikləri üçün beynəlxalq axtarışa verilmişlər.

Hər kəs yaxşı bilməlidir ki, Azərbaycan Respublikasının Konstitusiyasına və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanan qanun qarşısında hamı bərabərdir və irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, ictimai mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq, hər kəs öz əməlinə görə məsuliyyət daşıyır.

Cəmiyyətdə bu məsuliyyət hissinin formalaşdırılaraq dərinləşdirilməsi yolunda vergi orqanı əməkdaşlarına yeni-yeni nailiyyətlər arzulayıram.

**Xanoğlan ŞIXƏLİYEV,**
***Azərbaycan Respublikası Baş Prokurorluğunun baş ədliyyə müşaviri***



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Məcburi auditdən keçməli olan təsərrüfat subyektləri tərəfindən auditorun müəyyən edilməsi və auditə hazırlıq

*Azərbaycan Respublikasının Qanunvericiliyinin tələbi ilə bir çox təsərrüfat subyektləri maliyyə hesabatlarının düzgünlüyünün təsdiqi üçün məcburi auditdən keçməlidirlər. Ona görə də auditorun müəssisəyə dəvət (cəlb) olunması və ümumiyyətlə, auditin təşkilinin həyata keçirilməsi məsələləri təsərrüfat subyektlərinə tam aydın olmalıdır.*

«Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun (irəlidə «Qanun» adlanır) 17-ci maddəsində göstərilir ki, təsərrüfat subyektləri auditor seçməkdə sərbəstdirlər. Deməli, təsərrüfat subyektlərinin rəhbərləri və ya mülkiyyətçilərinin (səhmdarları) istənilən və ya istədiyi auditoru seçmək hüququ vardır. Lakin Qanunun digər müddəalarının məzmununa görə auditorun müstəqil seçilmək hüququ məhdudlaşdırıla bilər. Məsələn, Qanunun 3-cü maddəsinə görə auditor xidməti dövlət orqanlarının öz səlahiyyətləri daxilində təsərrüfat subyektlərinin fəaliyyətini yoxlamasını istisna etmir. Yəni səlahiyyətli dövlət orqanlarının sifarişi ilə audit həyata keçirilə bilər və bu halda da auditor həmin orqan tərəfindən təyin oluna bilər.

Təsərrüfat subyektinin rəhbəri düşünə bilər ki, auditor seçməkdə verilən sərbəstlik hüququndan istifadə edərək özünə daha yaxın hesab etdiyi, etibar etdiyi və ya uzun müddət tanıdığı auditoru dəvət etmək daha məqsədəmüvafiqdir. Lakin Qanunun 18-ci maddəsinə görə yoxlanılan müəssisədə şəxsi əmlak mənafeyi, yoxlanılan müəssisənin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, müəssisənin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, müəssisədə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə auditorlara həmin müəssisələrdə audit aparmaq qadağandır. Deməli, göstərilən əlaqələr istisna olmaqla, işinin keyfiyyətinə bələd olduğu istənilən digər auditor auditin aparılması üçün dəvət oluna bilər.

Məsələn, əgər audit aparılmalı olan müəssisənin rəhbərinin qardaşı tanınmış və peşəkar auditordursa və onun audit işinə ailə üzvü olaraq daha mükəmməl həyata keçirmək həvəsi ilə yanaşmasına baxmayaraq, qanun qardaşının rəhbəri olduğu müəssisədə həmin auditorun audit aparmasını qadağan edir.

Azərbaycan Respublikası Auditorlar Palatasının rəsmi saytına (www.audit.gov.az) daxil olaraq sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatlar (auditorların və auditor təşkilatlarının adları, ünvanı, əlaqə telefonları, lisenziyanın verilmə tarixi və başqa zəruri məlumatlar) əldə etmək olar. İlk baxışda, sayta daxil olaraq «tanımadığım auditoru müəssisəyə dəvət etmək və ya etibar etmək olarmı» sualı meydana çıxa bilər. Amma birmənalı olaraq, istənilən auditoru dəvət etmək olar. Auditor adını almış fiziki şəxs hər bir halda peşəkardır. Lakin peşəkarlığın da müxtəlif səviyyələri ola bilər. Ona görə də yüksək peşəkarlığı olan auditorları tapmaqda əvvəllər auditor dəvət etmiş digər yaxından tanıdığınız və ya partnyorluq etdiyiniz müəssisələrin rəhbər vəzifəli şəxslərinə müraciət etmək və digər etibarlı məlumat mənbələrindən istifadə etmək olar.

Sərbəst auditorlar və auditor təşkilatları dövlət qeydiyyatına alındıqdan sonra 5 il müddətinə verilən lisenziya əsasında fəaliyyət göstərmək hüququ olan şəxslərdir. Ona görə də auditoru dəvət edərkən onun lisenziyasına nəzər yetirmək olar.

Auditorun müəssisəyə cəlb olunması vaxtına da diqqət yetirilməlidir. Məlumdur ki, auditor maliyyə hesabatlarının düzgünlüyünə rəy verməlidir və sonra rəy ilə bilikdə maliyyə hesabatları mülkiyyətçilərə və digər mühasibat uçotu istifadəçilərinə təqdim olunmalıdır. Qanunla maliyyə hesabatlarının mülkiyyətçilərə son təqdim olunma müddətləri müəyyənləşdirilmişdir və müəssisə rəhbərləri çalışmalıdırlar ki, auditorun apardığı auditin müddətini də nəzərə almaqla vaxta nəzarət edə bilsin. Adətən, ən çox hallarda auditorlar mart ayında dəvət olunurlar. Bu da mənfəət vergisinin ödəyiciləri tərəfindən vergi orqanına təqdim olunan mənfəət vergisinin bəyannaməsinin son göndərilmə tarixinin mart ayının 31-dək olması və Vergi Məcəlləsinin 16.1.4-cü maddəsinin tələbi ilə əlaqədardır. Əlbəttə ki, təsərrüfat subyektlərinin əksəriyyətinin mart ayında auditorlara sifariş vermələri audit bazarında məhdud saya malik auditorların işində sıxlıq yaradacaqdır və bu hal auditin keyfiyyətli aparılmasına mənfi təsir göstərə bilər. Ona görə də təsərrüfat subyektlərinə tövsiyə olunur ki, ilin mart ayından başqa fevral, aprel və may aylarında da auditin həyata keçirilməsinə üstünlük versinlər.

**Ardı növbəti sayımızda**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

**4-cü MƏRHƏLƏ** *(davamı)*

Hörmətli oxucular, qəzetin əvvəlki sayında təqdim olunan əməliyyat jurnalının davamı olaraq ikili yazılış üsulu ilə əməliyyatların əməliyyat jurnalında aşağıdakı kimi əks etdirilməsi tövsiyə olunur (əməliyyatlar ümumi xarakter daşıdığına görə, tarixləri əks etdirməyəcəyik):

**ƏMƏLİYYAT JURNALI**

| Hesabın adı və əməliyyatın məzmunu | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|
| 711, «Kommersiya xərcləri»<br>521, «Sosial sığorta və təminatlar üzrə öhdəliklər»<br>Mağaza sahəsi üzrə məcburi sosial sığorta haqqı hesablanıb (əməkhaqqının 22 %-i qədər) | 2860 | 2860 |
| 711, «Kommersiya xərcləri»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Elektrik enerjisi xərci hesablanmışdır (mağaza sahəsində elektrik enerjisi istifadə olunmuşdur) | 1500 | 1500 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>221, «Kassa»<br>İstifadə olunmuş elektrik enerjisinin dəyəri kassadan "Bakıelektrikşəbəkə" ASC-yə ödənilib | 1500 | 1500 |
| 711, «Kommersiya xərcləri»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Su sərfi xərcləri hesablanmışdır (mağaza sahəsində su istifadə olunmuşdur) | 700 | 700 |
| 721, «İnzibati xərclər»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Qaz sərfi hesablanmışdır (ofisdə qaz istifadə olunmuşdur) | 900 | 900 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>İstifadə olunmuş qazın dəyəri milli valyutada bank hesabından "Azəriqaz" ASC-yə ödənilib | 900 | 900 |
| 721, «İnzibati xərclər»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>İcarəyə götürülmüş ofis binasına görə icarə haqqı hesablanmışdır | 2500 | 2500 |
| 521, «Vergi öhdəlikləri»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>Əməkhaqqından tutulan gəlir vergisi milli valyutada bank hesabından dövlət büdcəsinə ödənilmişdir | 2520 | 2520 |
| 211, «Alıcıların və sifarişçilərin debitor borcları»<br>601, «Satış»<br>Alıcılara mal satılmışdır - satış dəyəri ilə (71000 ədəd, vahidinin satış qiyməti 5,40 manat) | 383400 | 383400 |
| 205, «Mallar»<br>701, «Satışın maya dəyəri»<br>Satılmış malın alış dəyəri (71000 ədəd satılıb, vahidinin orta alış qiyməti ilə hesablamaq) | 273350 | 273350 |
| 721, «İnzibati xərclər»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Telefon-danışıq haqqı hesablanmışdır | 270 | 270 |
| 751, «Maliyyə xərcləri»<br>537, «Faizlər üzrə qısamüddətli kreditor borcları»<br>Alınmış kreditə görə kredit faizi hesablanmışdır (yəni ödənilməli olan kredit faizi) | 12660 | 12660 |
| 221, «Kassa»<br>211, «Alıcıların və sifarişçilərin debitor borcları<br>Alıcılardan kassaya pul daxil olmuşdur | 150000 | 150000 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>221, «Kassa»<br>Alınmış malların dəyərinin bir hissəsi kassadan malsatana ödənilmişdir | 160000 | 160000 |
| 501, «Qısamüddətli bank kreditləri»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>Bankdan alınmış kreditin bir hissəsi milli valyutada bank hesabından ödənilmişdir | 110000 | 110000 |
| 533, «Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borclar»<br>221, «Kassa»<br>İşçilərə kassadan əməkhaqqı nağd şəkldə verilmişdir | 8500 | 8500 |
| 201, «Xammal və materiallar»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Ofisdə istifadə etmək üçün dəftərxana satan mağazadan dəftərxana malları alınmışdır | 150 | 150 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>221, «Kassa»<br>Dəftərxana mallarının dəyəri kassadan ödənilmişdir | 150 | 150 |
| 721, «İnzibati xərclər»<br>201, «Xammal və materiallar»<br>Dəftərxana malları ofisdə istifadə edilmişdir | 150 | 150 |

**Davamı növbəti sayımızda**

vergi təqvimi

**FEVRAL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | 1 | **2** |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | **9** |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | **16** |
| **17** | 18 | 19 | **20** | 21 | 22 | **23** |
| 24 | 25 | 26 | 27 | 28 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 fevral - «(5)»
20 fevral - «(1-1)», «3», «4», «8», «10.1», «10.2», «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər**: ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.
Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

İki özəl müəssisənin - «Araz-İnşaat» və «Qlobal-S» MMC-nin direktoru Akif Ağayev tabeliyində olan obyektlərdə mühasibat işlərinə və bəyannamələrin hazırlanaraq təqdim olunmasına birbaşa özü nəzarət etmiş, bununla da vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmaq imkanı qazanmışdır.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşlarının apardıqları araşdırmalar zamanı müəyyən edilmişdir ki, A. Ağayev «Araz-İnşaat» və «Qlobal-S» MMC-nin direktoru vəzifəsində işləyərkən əmlakının maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini üzərinə götürmüş, qanunvericiliyə zidd hərəkətlər edərək 2008-2009-cu illərdə böyük məbləğdə vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmışdır. Sahibkar Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 53.1, 72, 77.3, 78.1, 82.3, 83.4, 85.2, 107-109 və 180-ci maddələrinin tələblərini pozaraq cəmiyyətlərin qeydiyyatda olduğu vergi orqanlarına bilə-bilə təhrif olunmuş bəyannamələr təqdim edərək 52.779,66 manat məbləğində əlavə dəyər vergisini, 342.767,55 manat məbləğində mənfəət vergisini, ümumilikdə külli miqdar təşkil edən 395.547,21 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmışdır. Bununla da Azərbaycan Respublikası CM-nin 213.2.2-ci maddəsində nəzərdə tutulan cinayət əməli törədilmişdir. Bundan əlavə, A.Ağayev «Qlobal-S» Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru vəzifəsində işləyərkən ümumilikdə 67.986,20 manat məbləğində hüquqi şəxsin mənfəət vergisini dövlət büdcəsinə ödəməkdən yayınmışdır. Sahibkar bu əməlinə görə CM-nin 213.2.2-ci maddəsi ilə nəzərdə tutulan cinayəti törətməkdə şübhəli şəxs kimi tutulmuş, barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Fakt üzrə Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində cinayət işi başlanaraq araşdırma aparılmışdır. İş üzrə aparılmış istintaq zamanı sahibkar elan olunmuş ittihamla özünü qismən təqsirli bilərək törətdiyi cinayət əməllərini etiraf etmişdir. Sahibkar A.Ağayev Yasamal Rayon Məhkəməsinin hökmü ilə 2 il dövlət və yerli özünüidarəetmə orqanlarında maddi-məsul vəzifə tutma hüququndan və 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişdir. Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə azadlıqdan məhrumetmə cəzası 3 ilə endirilmişdir.

**ELBRUS**



beynəlxalq panoram

# İspaniya şahzadəsi vergi qaçaqçılığında ittiham olunur

Son günlərdə dünyanın nüfuzlu informasiya mənbələrinin İspaniyadan yaydıqları sensasiyalı xəbərlərdə kralın kiçik qızı şahzadə Kristinanın «çirkli pulların yuyulmasında» və vergi qaçaqçılığında ittiham edilərək istintaqa cəlb edildiyi vurğulanır. İttihamnamədə şahzadə həyat yoldaşı İnaki Urdangarinlə şərik olduğu «Aizoon» şirkəti vasitəsilə qanun pozuntularının törədilməsinə şərait yaratmaqda və maliyyə fırıldaqlarını görməzliyə vurmaqda günahlandırılır. Türkiyənin «Zaman» qəzetinin məlumatına görə, istintaq beş saatdan artıq davam etmiş, şahzadəyə 100-dən çox sual verilmişdir. İspaniyada «Noos hadisəsi» adlandırılan iddianaməyə əsasən, şahzadə Kristinanın həyat yoldaşı İnaki Urdangarinin 2003-2007-ci illər arasında rəhbərlik etdiyi Noss İnstitutu adlı ictimai fonddan təxminən 6 milyon avro məbləğində vəsait bu ailəyə məxsus «Aizoon» şirkətinin hesabına köçürülmüşdür. Şahzadənin həyat yoldaşına 6 maddə üzrə cinayət ittihamı irəli sürülmüş, 23 il həbs cəzası tələb olunmuşdur.

Bu cinayət işi ilə əlaqədar şahzadə Kristinanın martın 8-də məhkəmə qarşısına çıxacağı gözlənilir.

İspaniyanın Baş naziri Raxoy Mariano Türkiyəyə səfəri zamanı bu məsələ ilə bağlı verilmiş sualı belə cavablandırmışdır: «Şahzadə istənilən bir vətəndaş kimi özünü müdafiə, günahsızlığını isbat etməyə məcburdur. Bu məsələdə qanun qarşısında heç kimin bir-birindən fərqi yoxdur. İspaniya hüquq dövlətidir və qanuna hörmət göstərməyə borcluyuq. Qanunverici, icra və prokurorluq orqanlarının hər biri öz üzərinə düşən vəzifəni yerinə yetirəcəkdir».

# Vergi yığımı artır

Cənubi Amerikanın 19 ölkəsində fərdi göstəricilər hələ bir-birindən çox fərqli olsa da, yığılmış vergilərin cəmi məbləğinin ümumi daxili məhsula nisbətində əhəmiyyətli artım olmuşdur. BMT nəzdində fəaliyyət göstərən Latın Amerikası və Qərəib hövzəsi üzrə İqtisadi Komissiyanın ekspertlərinin rəyi belədir.

Hesabatda göstərilmişdir ki, 1990-cı ildən 2012-ci ilədək Latın Amerikası ölkələrində yığılmış verginin ÜDM-ə nisbəti 13,9%-dən 20,7%-dək artmışdır. Onu da qeyd etmək yerinə düşər ki, Latın Amerikası ölkələrinin hazırda əldə etdikləri göstərici İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrin orta göstəricisindən 14% azdır.

Hesabatın müəllifləri region ölkələrinin əldə etdikləri konkret göstəricilər barədə qeyd etmişlər ki, yığılmış vergilərin ÜDM-dəki payının ən yüksək olduğu ölkələr Argentina (37,3%) və Braziliyadır (36,3%). Qvatemala (12,3%) və Dominikan Respublikası (13,4%) isə bu siyahının sonunda gəlir.

İctimaiyyətə təqdim olunmuş hesabatın nəticələrinə görə, 2012-ci ildə ən böyük iqtisadi artım Argentinada (2,6%) və Ekvadorda (2,3%) qeydə alınmışdır. Uruqvayda (1%) və Çilidə (0,4%) isə azalma müşahidə edilmişdir.

İqtisadi Komissiyanın ümumi rəyi müsbət olsa da, hesabatda xüsusi vurğulanmışdır ki, Latın Amerikası və Qərəib hövzəsi ölkələrində son 22 ildə vergilərin yığımında nəzərəçarpan artım əsas etibarilə xammal və təbii ehtiyatların ixracına qoyulmuş vergilərin hesabına baş vermişdir. Bu mənbədən əldə olunan iqtisadi artım isə dayanıqlı və etibarlı hesab edilə bilməz: iqtisadiyyat daim dünya bazarındakı tələbdən və dəyişkən qiymət parametrlərindən asılı olur.



# Dubayda turistlərdən vergi tutulacaq

Martın 31-dən Birləşmiş Ərəb Əmirliklərinin ərazisində yerləşən mehmanxanalarda qalan bütün turistlər vergi ödəməli olacaqlar. Otelin növündən asılı olaraq yeni verginin məbləği 1 turist üçün yeddi dirhəmdən iyirmi dirhəmə (1,9-5 ABŞ dolları) qədər müəyyənləşdirilib. Yeni vergidən əldə olunan vəsait isə Dubayda turizm sektorunun inkişafına yönəldiləcək. «Dubai Chronicle» agentliyinin məlumatına görə, bu məqsədlə ölkədə Dubai Corporation for Tourism and Commerce Marketing (Turizm və kommersiya marketinqi üzrə Dubay korporasiyası) adlı xüsusi bir müəssisə təsis olunub.

Statistikaya görə, 2013-cü ildə Dubaya gələn turistlərin sayı on milyondan artıq olmuşdur. Ölkə hakimiyyəti 2020-ci ilə qədər buraya gələn turistlərin illik sayını 20 milyona qədər artırmaq üçün yollar axtarır.

Xarici ölkələrin təcrübəsi:

# Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının vergi sistemi

Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edir

**(davamı)**

Mənfəət vergisi: Birləşmiş Krallıqda sahibkarlıq fəaliyyəti nəticəsində yaranan zərər ötən bir il müddətinə geri və ya qeyri-müəyyən müddətə növbəti illərə keçirilə bilər. Növbəti illərə keçirilmiş zərər ilk mənfəət hesabına kompensasiya edilir. Dünya maliyyə böhranı ilə əlaqədar 24 noyabr 2008-23 noyabr 2010-cu il tarixlərində yaranmış zərərin üç il geriyə aid edilməsi mümkündür. Lakin geriyə aid edilən zərərin məbləği 50 min funt-sterlinqdən ($81,8 min) artıq olmamalıdır.

Rezident müəssisələrə edilən bütün ödənişlərdən, qeyri-rezidentlərə isə ödənilən dividendlərdən ödəmə mənbəyində vergi tutulmur. Qeyri-rezidentlərə ödənilən faiz və royaltidən ödəmə mənbəyində 20% dərəcə ilə vergi tutulur.

Birləşmiş Krallıqda kiçik və orta biznes təmsilçiləri üçün tədqiqat və inkişaf işlərinə çəkilən xərclərin 225%-ə qədəri, iri müəssisələr üçün bu cür xərclərin 130%-ə qədəri gəlirdən çıxıla bilər.

Gəmiçilik üçün xüsusi faydalı rejim tətbiq edilir. Gəmiçilik və onunla əlaqəli fəaliyyətdən əldə olunan gəlir müəyyən şərtlər daxilində mənfəət vergisindən azaddır. Mənfəət vergisi əvəzinə müəssisənin fəaliyyətdə olan bütün gəmilərinin məcmu tonnajına əsasən hesablanan «tonnaj vergisi» tətbiq edilir.

Mənfəət vergisi üzrə vergi dövrü «maliyyə ili» hesab olunur. Maliyyə ili cari ilin 1 aprel tarixindən növbəti ilin 31 mart tarixinədək olan dövrü əhatə edir. Mənfəət vergisi üzrə vergi öhdəliyi vergi ödəyicisinin özü tərəfindən qiymətləndirilir, vergi hesabat dövrünün sonundan 9 ay ərzində hesablanır və ödənilir. İri müəssisələrə münasibətdə rüblük cari ödənişlər tətbiq edilir. Mənfəət vergisi bəyannamələri cari hesabat dövründən sonrakı 12 ay və ya bəyannamənin təqdim edilməsi haqqında bildirişin alınmasından üç ay ərzində təqdim edilir. Qanunla müəyyən edilmiş tarixdən 12 ay ərzində təqdim edilmiş bəyannamədə dəyişikliklər edilməsi mümkündür. Gəlirlər və Gömrük orqanı 12 ay ərzində bəyannamədə kameral yoxlama keçirə bilər.

İri müəssisələr mənfəət vergisini hesabat dövrünün başlanğıcından sonra dörd hissə üzrə: iyulun 14-dək, oktyabrın 14-dək, yanvarın 14-dək və martın 14-dək ödəməlidirlər. Hesabat dövrü bir ildən az olan hallarda xüsusi qaydalar tətbiq edilir.

Mənfəəti 1,5 mln. funt-sterlinqdən ($2,5 mln.) artıq olan müəssisə iri müəssisə hesab olunur. Ödəmə mənbəyində vergiyə cəlb olunan istənilən gəlir (rezident müəssisələr istisna olmaqla) mənfəət vergisi öhdəliyinin hesablanması zamanı nəzərə alınır.

Əlavə dəyər vergisi: Birləşmiş Krallıqda mal və xidmətlərin təqdim edilməsi ƏDV-yə cəlb olunur. ƏDV məqsədləri üçün qeydiyyatda olan və ya qeydiyyatda olma öhdəliyi olan şəxslər ƏDV ödəyiciləridir. Birləşmiş Krallıqda ƏDV məqsədləri üçün vergiyə cəlb olunan əməliyyatla məşğul olan və ya məşğul olmaq istəyən şəxs ƏDV məqsədləri üçün qeydiyyata dura bilər. ƏDV ödəyicisinin qeydiyyatdan əvvəl mal və xidmətlərin alınmasına görə ödədiyi ƏDV əvəzləşdirilə bilər.

ƏDV mal və xidmətlərin üç cür əməliyyatlarından tutulur. Bunlara Birləşmiş Krallıqda vergi tutulan əməliyyatlar, Avropa Birliyi üzvündən və Avropa Birliyindən kənardan malların idxalı daxildir. Vergi tutulan ƏDV məbləği mal və xidmətlərə görə ödənilmiş məbləğ hesab olunur. İdxal zamanı vergi tutulan məbləğ gömrük dəyərinin gömrük rüsumları qədər artırılmış hissəsi hesab olunur. Yekun vergi öhdəliyi hesablanarkən ƏDV ödəyicisinin sahibkarlıq məqsədilə aldığı mal və xidmətlərə görə ödədiyi ƏDV əvəzləşdirilir.

ƏDV məqsədləri üçün məcburi qeydiyyatdan keçmə üzrə minimum illik dövriyyə: 1 aprel 2013-cu il tarixdən 79 min funt sterlinq ($130 min), qeydiyyatın ləğv edilməsi ucun maksimum dövriyyə 77 min funt sterlinq ($126 min) hesab olunur.

Bank və sığorta xidmətləri, torpaq və binaların icarəsi (kommersiya məqsədləri ucun icarə standart dərəcədən fərqli dərəcə ilə vergiyə cəlb oluna bilər), təhsil və səhiyyə xidmətləri ƏDV-dən azaddır.

ƏDV-nin standart dərəcəsi 20%-dir. İxrac və birlikdaxili (digər AB üzvlərinə) ölkələrə mal və xidmətlərin təqdim edilməsi ƏDV-yə sıfır dərəcə ilə cəlb olunur. Bundan əlavə, ərzaq tədarükü, kitab, qəzet çapı və uşaq paltarlarının istehsalı ƏDV-yə sıfır dərəcə ilə cəlb olunur.

1 dekabr 2012-ci il tarixdən Birləşmiş Krallıqda mal və xidmət təqdim edən qeyri-rezident şəxslər dövriyyəsindən asılı olmayaraq ƏDV məqsədləri üçün qeydiyyatdan keçməlidirlər. Bu müddəa Birləşmiş Krallıqda təşkil olunmayan, burada müvəqqəti qalıb mal və xidmətlərin təqdim edilməsi ilə məşğul olan vergi ödəyicilərinə aid edilir.

**2012-ci ildə Birləşmiş Krallıqda vergi daxiolmalarının strukturu**




krossvord



**Yuxarıdan aşağı:** 1.İslamda dinin vacib əməllərindən biri; 2.İspan simli musiqi aləti; 3.1949-cu ildə qurulmuş hərbi ittifaq; 4.Azərbaycanın qədim rəqslərindən biri; 6.Böyük Britaniyaya məxsus Bristol körfəzində ən böyük ada; 7.Çeçenistan Respublikası paytaxtının rusca yazılışı; 8.Müəyyən vaxt ərzində ödəniş etməyi öz öhdəsinə götürən fiziki və ya hüquqi şəxs; 13.Rəng çalarları seçmək üçün rəssam aləti; 14.İranda şəhər; 16.«Fiqaronun evlənməsi» komediyası ilə populyarlıq qazanan məşhur fransız dramaturqu və publisisti; 17.Çox sadə proqlamlaşdırma dili; 19.Çin avtomobil markası; 21.Sovet bəstəkarı, dirijor və pedaqoqun soyadı (1874-1956). Azərbaycan folkloru əsasında yaradılmış «Şahsənəm» operasının müəllifidir; 22.Türkiyədə Anadolunun qərb sahillərində İzmir əyalətinin Səlcuq səmtinin 3 km uzaqlığında yerləşən tarixi şəhər.

**Soldan sağa:** 1.Qafqaz Albaniyasının hökmdarlarından biri, Mehranilər sülaləsinin ən parlaq nümayəndəsi; 5.Becərilən bitkilər arasında özbaşına bitən ot; 9.«Cangüdən» filminin baş qəhrəmanı, ABŞ müğənnisinin soyadı. ABŞ-da bu adda şəhər də var; 10.«Yaxşı, pis və qəddar» (1966), «Peşəkar» (1981) və digər kino-televiziya verilişləri üçün bəstələdiyi çoxsaylı musiqilərlə məşhurlaşmış dünya şöhrətli italyan bəstəkarı, aranjimançı və dirijorun adı; 11.Məşhur ispan rəssamı, heykəltəraş, filosof və rejissor, təsviri incəsənətdə sürrealizm cərəyanının ən populyar nümayəndələrindən biri; 12.Vulkanik şüşədən yaranmış maqmatik mədən növü; 14.Romalı olmayan Antoninlər sülaləsindən ilk Roma imperatoru; 15.Amerikada at belində mal otaranlara və buna yaxın peşə sahiblərinə verilən ad; 18.İngilis-irland yazıçısı Conatan Sviftin romanının baş qəhrəmanı; 20.Havanın Yer səthinə yaxın hissəsinin tüstü və his qarışığı olan qatı duman ilə çirklənməsi; 23.Ucu getdikcə genişlənən boru şəklində nəfəsli çalğı aləti; 24.Şair-dramaturq, tərcüməçi, əməkdar incəsənət xadimi. «Göz həkimi» pyesinin müəllifinin soyadı; 25.Fransanın mədəniyyət mərkəzlərindən biri. Burada hər il beynəlxalq kino festivalı keçirilir; 26.Həndəsi fiqur, çoxüzlü (20-üzlü).

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qusar; 2.Zəfəran; 3.Nəbz; 4.Atlant; 6.Oktan; 7.İrkutsk; 8.Palermo; 13.Klarion; 14.Balakən; 16.İbrahim; 17.İndiqo; 19.Banan; 21.Fenol; 22.Ofis.

**Soldan sağa:** 1.Qazanxan; 5.Soçi; 9.Softbol; 10.Artek; 11.Rurk *(Mikki)*; 12.İnternet; 14.Bentli; 15.Ammiak; 18.Labirint; 20.Qraf; 23.Kenzo; 24.İsfahan; 25.Nənə; 26.Komsomol.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# Yenə də Xetaq Qazyumov...

### Azərbaycan güləşçiləri İstanbulda keçirilən beynəlxalq turnirdə beş medal qazanıblar

*İstanbulda Yaşar Doğunun xatirəsinə həsr olunmuş Beynəlxalq güləş turniri başa çatmışdır. Artıq 42-ci dəfə keçirilən turnirdə sərbəst güləş üzrə Azərbaycan yığma komandası 1 qızıl, 2 gümüş və 2 bürünc medala sahib olmuşdur. Bu nəticə ilə yığmamız komanda hesabında üçüncü yeri tutmuşdur. Turnirdə Türkiyə birinci, ABŞ komandası ikinci sırada qərarlaşmışlar.*



Bütün görüşlərini qələbə ilə başa vuran Olimpiya mükafatçımız Xetaq Qazyumov (97kq) turnirin qalibi olmuşdur. O, ardıcıl olaraq Türkiyə yığmasının 5 güləşçisini mübarizədən kənarlaşdırmışdır. Məhəmməd Müslümov (65 kq) da rəqiblərindən üstün olmuş və finala yüksəlmişdir. Ancaq finalda İtaliya güləşçisi ilə görüşdə uduzan təmsilçimiz gümüş medalla kifayətlənmişdir.

Finaladək maneəsiz irəliləyən digər güləşçimiz turnirin ikinci günündə mübarizəyə qoşulan Emin Əzizov (70 kq) olmuşdur. Ardıcıl olaraq Makedoniya, Türkiyə və Tacikistan güləşçilərini üstələyən E.Əzizov finalda digər Türkiyə təmsilçisinə uduzaraq gümüş medala sahib olmuşdur.

Yarışda 61 kiloqram çəki dərəcəsində mübarizə aparan Əhmədnəbi Qvarzatilov finalın bir addımlığında məğlub olmuşdur. Yaponiya və Türkiyə güləşçilərini üstələyən pəhləvanımız yarımfinalda monqolustanlı idmançıya uduzmuşdur. Ancaq medal yolunda həlledici görüşdə Türkmənistan güləşçisindən üstün olan təmsilçimiz bürünc mükafat qazanmışdır.

Turnirdə 97 kiloqram çəki dərəcəsində yarışan digər təmsilçimiz Roman Bəkirov da bürünc medala sahib olmuşdur.

Görüşlərin idarə edilməsində ölkəmizi Beynəlxalq dərəcəli hakim Vüqar Şükürov təmsil etmişdir. Yaşar Doğunun xatirəsinə həsr olunmuş 42-ci Beynəlxalq turnirin Beynəlxalq Güləş Federasiyası (FİLA) tərəfindən nümayəndəsi də azərbaycanlı - Olimpiya dərəcəli hakim Hicran Şərifov olmuşdur.

# Azərbaycan idmançılarının Olimpiya Oyunlarında ilk çıxışı uğurlu olub

*Soçidə keçirilən XXII Qış Olimpiya Oyunlarında fiqurlu konkisürmə yarışları başa çatmışdır. «Aysberq» Qış İdman Sarayında keçirilən yarışda 20 cütlük birincilik uğrunda mübarizə aparmışdır. Yarışda Azərbaycanı Yuliya Zlobina - Aleksey Sitnikov cütlüyü təmsil etmişdir.*




Fevralın 16-da idmançılar qısa proqramla çıxış etmişlər. İyirmi dörd cütlüyün mübarizə apardığı yarışda gimnastlarımız çıxış etmiş və 58,15 xal toplayaraq sərbəst proqramda iştirak etmək hüququ qazanmışlar.

Fevralın 17-də mübarizə aparan Azərbaycan gimnastları sərbəst proqramla rəngarəng çıxışı azarkeşlər tərəfindən hərarətli alqışlarla qarşılanmışdır. Yuliya Zlobina-Aleksey Sitnikov dueti ümumilikdə 148,63 xal toplayaraq Soçi Qış Olimpiya Oyunlarını 12-ci pillədə başa vurmuşlar.

Yarışın qalibi iki çıxışın nəticəsinə görə 195,52 xal toplamış ABŞ-dan olan cütlük Meril Devis-Çarli Uayt olmuşdur. Kanadalı Tessa Virçu-Skott Moyr dueti gümüş, Rusiya idmançıları Yelena İlinıx-Nikita Kaçalapov isə bürünc medala sahib olmuşlar.

# «Bu, olduqca xoş başlanğıcdır»

*Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku»nun 2014-cü ildə iştirak etdiyi ilk 2 turnir xoş perspektivlər vəd edir.*

Komandanın idman direktoru Jeremi Hant və menecer David McQuaidı azərbaycanlı velosipedçilər Elçin Əsədov və Tural İsgəndərovun çıxışı xüsusilə razı salıb: «Onlar Avstraliyadakı «Herald Sun Tour» yürüşündə inamla çıxış etdilər. Bu, qarşıdakı uzun mövsüm üçün xoş başlanğıcdır. Hiss olunur ki, biz son 1 il ərzində əhəmiyyətli dərəcədə irəliləyişə nail olmuşuq». Komandanın meneceri yarışın keçirildiyi məkandakı isti hava səbəbindən bu turniri çətin yürüş kimi xarakterizə edib.

David McQuaid, həmçinin, almaniyalı velosipedçiər Daniel Klemme və Maykl Şvayzerin komandanın uğurlu çıxışına verdiyi töhfəni yüksək qiymətləndirib: «Peşəkar səviyyədə ikinci mövsümümüzü keçiririk. Onların komandamızda olmasından çox məmnunam. Klemmenin «Cycle Classic» və «Herald Sun Tour»dakı inamlı çıxışı, Şvayzerin isə Yeni Zelandiyada qazandığı sprinter maykası bizi çox sevindirdi».

## mozaika

# Kosmik şüalar və radiasiya mənbəyi

tədqiqat

Yaponiya alimləri bildirmişlər ki, onlar kosmik şüalar vasitəsilə radiasiya sızmalarının mənbəyinin tapılmasına nail olmuşlar. Tədqiqatlar sunaminin xəsarət yetirdiyi Fukusima atom elektrik stansiyasında (AES) aparılmışdır. Tədqiqatlarda iştirak edən alim Fumixiko Takasaki demişdir: «Apardığımız tədqiqatlar yüksək radiasiyalı lokal sahələrin aşkarlanmasının yeni yüksəkeffektli üsulunu müəyyənləşdirdiyimizi deməyə imkan verir. Beləliklə, dünyanın istənilən guşəsində radiasiya sahələrini müəyyən etmək mümkündür. Yaponiya alimləri əmindirlər ki, bu texnologiya Fukusima AES-də baş verən sızmaların nəticələrinin aradan qaldırılmasına kömək edəcəkdir.

Fukusima AES-də fəlakətin nəticələrinin ləğvi üzərində işləyən mütəxəssislər bir sıra çətinliklərlə qarşılaşmışlar. Xüsusilə, onlar ərimiş yanacağın zədələnmiş reaktorların daxilində məhz harada olduğunu bilmirlər.

# Qəzəbli olmağın səbəbləri

araşdırma

*Qəzəb hər bir kəsə xas olan xüsusiyyətdir. Amma insan davamlı şəkildə aqressiv vəziyyətdə olduğunu hiss edirsə, bu barədə düşünməlidir.*



Aqressiya vəziyyəti heç də təkcə psixoloji pozğunluqlardan irəli gəlmir, həmçinin müxtəlif xəstəliklərdən xəbər verir. Məsələn, hipertireoz, yəni qalxanabənzər vəzinin hiperaktivliyi insanda qəzəb doğura bilər. Bu, qalxanabənzər vəzinin normadan artıq tiroid hormonu ifraz etməsi səbəbindən qadınlarda daha çox müşahidə edilir.

Diabet qəflətən qəzəblənmə hallarının artmasına kömək edə bilər, belə ki, qanda şəkərin səviyyəsi orqanizmin və beynin müxtəlif toxumalarına güclü təsir göstərir ki, bu da bütün kimyəvi maddələrin, o cümlədən serotoninin tarazsızlığına gətirib çıxarır.

Depressiya da əsəbilik, narahatlıq və qəzəb doğurur. Altsgeymer xəstəliyi ona görə belə vəziyyətə gətirib çıxarır ki, beynin müxtəlif sahələrinə, xüsusən də şəxsiyyət xarakteristikası üçün cavabdeh olan alın hissəsinə təsir göstərir.

Qaraciyərlə bağlı bəzi xəstəliklər, məsələn, hepatit və ya sirroz qaraciyər ensefalopatiyasına səbəb olur, bu isə sonradan xarakterdə qəzəb və deyingənlik kimi dəyişikliklər yarada bilər.

İnsult zamanı beynin bütün emosiyalara nəzarət edən alın hissəsi zədələnirsə, bu da aqressiyaya gətirib çıxara bilər.

elm




# Yer kürəsinin maqnit qütbləri yerini dəyişir

Alimlər Yer kürəsinin maqnit qütblərinin öz yerini yüksək sürətlə - həftədə bir dərəcə olmaqla dəyişdiyini müəyyənləşdirmişlər. Onların fikrincə, maqnit qütbləri Yerin daxilində olan maye halındakı nüvənin hərəkəti nəticəsində yaranır. Şimal qütbü ilə cənub qütbü öz yerini təqribən 200 min ildən bir dəyişir.

Lakin tədqiqatçılar qrupu bu prosesin daha qısa zaman ərzində baş verə biləcəyi haqda dəlillər əldə etmişlər. Qütblərin yerdəyişməsi maqnitləşmə qabiliyyətinə malik süxurlarda aydın izlər qoyur. Alimlər ABŞ-ın Oreqon ştatında yerləşən Stins-Mauntin dağı ətrafında vulkanik süxurları tədqiq edərkən belə nəticəyə gəlmişlər ki, 16,2 milyon il bundan öncə qütblərin yerdəyişməsi daha yüksək sürətlə - gün ərzində 6 dərəcə (normal sürətdən 10 min dəfə çox) olmaqla baş vermişdir.

Daha sonra Nevada ştatındakı Betl-Mauntin dağı ətrafında 15 milyon il yaşı olan vulkanik süxurların araşdırılması həmin dövrdə yerdəyişmənin sürətinin ildə 53 dərəcə olduğunu üzə çıxarmışdır. Bütün bu araşdırmaları kompleks təhlil edən alimlər qütblərin belə sürətli yerdəyişməsi prosesinin Yer kürəsinin bütünlüklə deyil, yalnız müəyyən hissəsini əhatə etdiyi qənaətinə gəlmişlər.

Bir çox alimlərin fikrincə, yaxın zamanda qütblərin növbəti yerdəyişməsi baş verməlidir. Bu ehtimal bir neçə fakta, həmçinin maqnit qütblərinin zəiflədiyini müşahidə edən peyklərdən alınan məlumatlara əsaslanır.

# Beynin insanı heyvanlardan fərqləndirən sahəsi aşkar olunub

Oksford Universitetinin alimləri insan beyninin strateji planlaşdırma və çoxvəzifəlilik üçün cavabdeh olan, həmçinin heyvanlarda müşahidə edilməmiş hissəsini aşkara çıxarmışlar.

«LiveScience» elmi saytı yazır ki, beynin ön qabığının alın payının yan hissəsi adlandırılan bu sahə Metyu Raşvortun və Frans-Ksavyer Noybertin tədqiqatında təsvir olunmuşdur.

Təfəkkür prosesləri beynin bu sahəsində baş verir. «Biz gələcəyi planlaşdırmaq, çevik qavrama və başqalarından öyrənmək qabiliyyətinin daha çox insana xas keyfiyyətlər olduğunu düşünməyə adət etmişik, - Raşvort demişdir. - Biz beynin elə bir zonasını aşkar etmişik ki, o, insan üçün unikal sahədir və bütün əməliyyatları yerinə yetirməyə imkan verir».

Alimlərin fikrincə, insanı heyvanlardan fərqləndirən də beynin strateji planlaşdırma, çoxvəzifəlilik və qərar qəbul edilməsinə cavabdeh olan bu sahəsi ilə bağlıdır.





ELAN

«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


**Müdriklər deyib ki...**



***«Keçmişi bilmədən bu günün əsl mənasını və gələcək üçün məqsədləri başa düşmək mümkün deyil».***

***Maksim Qorki (1868-1936)***